QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 142 (5862) **7 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Yeni iş yerlərinin yaradılması dövlətin sosial siyasətinin prioritetidir

*Prezident İlham Əliyev: "Biz daim iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq"*



Səh 2

Bakıda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib



3

"Ermənistan tərəfi təxribatçı açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur"



5

Azərbaycan XİN: "Ermənistanın baş nazirinin Xankəndidəki çıxışı onun həqiqi simasını üzə çıxardı"



5

"Joxovurd" qəzeti: "Ermənistanın daimi əhalisi daha da azalıb"



9

Xalidə Quliyeva: "Prezidentin kino xadimlərini təltif etməsi Azərbaycan mədəniyyətinə göstərdiyi diqqətin bariz nümunəsidir"



5

Ahıllar üçün günərzi xidmət mərkəzləri yaradılı



11

13

Müxalifətdaxili çəkişmələr, "agent" axtarışı, bir-birinə qısqanclıq...



5

"Sözsüz ki, bu sərəncamlar axırıncı deyil"



16

"Barselona" Neymar üçün 250 milyon avro təklif edib?



# Yeni iş yerlərinin yaradılması dövlətin sosial siyasətinin prioritetidir

## *Prezident İlham Əliyev: "Biz daim iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq"*

***"Bizim əhalimiz artır. Müstəqillik dövründə əhalimiz, təxminən 3 milyon nəfər artıb. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini sevinclə qeyd etmişik". Bunu Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə deyib. Dövlət başçısı bildirib ki, bu, bizim böyük sərvətimizdir, amma digər tərəfdən, onu deməyə əsas verir ki, biz daim iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq: "Sosial infrastrukturun yaradılması ilə məşğul olmalıyıq, nəqliyyat sahəsində əlavə tədbirlər görülməlidir ki, artan əhali, vətəndaşlar özlərini rahat hiss etsinlər, işlə təmin olunsunlar.***



Bir daha demək istəyirəm ki, bu, daimi prosesdir. Çünki Azərbaycanın uğurlu inkişafı, sənaye sahəsində, iqtisadi sahədə inkişaf əhalinin artımına, bilavasitə təsir edən amildir və biz buna daim hazır olmalıyıq".

Ölkə başçısı onu da qeyd edib ki, iqtisadi artım üçün yeni mənbələr axtarılmalıdır ki, bu, dayanıqlı olsun: "Qeyri-neft sektorunun inkişafı burada əsas rol oynayır. Ancaq onu da bilməliyik ki, bu gün iqtisadi inkişafımız üçün əsas sektor neft-qaz sektorudur. Bu sahədə də çox önəmli addımlar atılıb. Cənub Qaz Dəhlizinin icrası ilə bağlı çox əhəmiyyətli işlər görülüb. Hazırda Cənub Qaz Dəhlizinin icrası sona yaxınlaşır. Artıq onun sonuncu seqmentinin icrası başa çatır. Bu, tarixi layihədir. Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması nəticəsində, Azərbaycan əlavə gəlir əldə edəcəkdir. Hesab edirəm ki, altı ayda görülmüş işlər təqdirəlayiqdir".

Son 16 ilə nəzər yetirmək kifayətdir ki, Azərbaycan bundan sonrakı illərdə də ancaq və ancaq uğurlara imza atacaq. Ölkə Prezidenti İlham Əliyev çıxışlarında da vurğulayır ki, Azərbaycan bundan sonrakı dövrdə də uğurla inkişaf edəcək: "Verdiyimiz bütün vədlər yerinə yetirilir. Son 15 il ərzində bir dənə də yerinə yetirilməyən vəd olmamışdır. Bu gün Azərbaycanın reallıqları, onu göstərir ki, biz düzgün yoldayıq. Bu yolla uğurla gedəcəyik".

Bəli, bu gün də, sabah da, gələcəkdə də Azərbaycan bu uğurlu yolla gedəcək. Çünki bütün bu göstəricilər son illərdə ölkəmizdə həyata keçirilən düşünülmüş iqtisadi islahatların və Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasətin məntiqi nəticəsidir: "Bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik".

Ölkəmizdə əhalinin iş yerləri ilə təmin edilməsi kimi vacib sosial problemin həllində 2004-cü ildən bəri regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrasının əhəmiyyətini də xüsusi vurğulamaq lazımdır. Bu proqramlara uyğun olaraq, regionlarda müasir infrastruktur yaradılmış, iqtisadiyyatın inkişafı təmin olunmuş və çoxsaylı yeni iş yerləri açılmışdır. Yeni iş yerlərinin yaradılması başqa bir vacib problemin müsbət həllinə şərait yaratmışdır. Məlumdur ki, bir vaxtlar regionlarda yaşayış yeri üzrə iş tapa bilməyən insanlar, ələlxüsus da, gənclər paytaxt Bakıya, digər iri şəhərlərə üz tutmaq məcburiyyətində qalırdılar. İndi ölkə üzrə bu mənfi tendensiya, demək olar ki, tam aradan qaldırılıb.

Dövlət başçısı keçirilən müşavirədə də bildirib ki, Azərbaycanda iş yerlərinin yaradılması ilə bağlı yeni hədəflər müəyyənləşdirilib. Uğurlu sosial-iqtisadi siyasət sayəsində Azərbaycan əhalisi getdikcə artır. Ölkədə əhalinin artım tendensiyası ilə əlaqədar yeni iş yerlərinin yaradılması da daimi prosesə çevrilməlidir.

Digər əsas məqam isə, ölkəmizdə sahibkarlığın inkişafına dövlətin diqqət və qayğısıdır. Çünki sahibkalığın inkişafı yeni iş yerlərinin yaradılması probleminin həllində də mühüm rol oynayır. Məhz bu baxımdan, ölkə başçısı tərəfindən imzalanmış bütün qanun, fərman və sərəncamlar Azərbaycanda bazar iqtisadiyyatının və sahibkarlığın inkişafına yönəldilib. Əgər sahibkarlıq fəaliyyəti ilə bağlı bütün qanunları diqqətlə nəzərdən keçirsək, görərik ki, onların hər birində özəl sektorun inkişafı üçün güzəşt və imtiyazları, dövlət yardımını, o cümlədən, maliyyə dəstəyini nəzərdə tutan kifayət qədər müddəalar var. Ölkə Prezidenti yerli istehsalçıların dəstəklənməsi, iş adamlarına iqtisadi fəaliyyətə başlamaq üçün hər cür şəraitin yaradılması, vergi orqanları tərəfindən qeyri-qanuni və uzunmüddətli yoxlamaların, bəzi dövlət qurumlarında rüşvətxorluğun aradan qaldırılması, hüquq-mühafizə orqanlarının sahibkarlıq fəaliyyətinə müdaxiləsinin dayandırılması, inhisarçılığın qarşısının alınması, sahibkarlığın inkişafı üçün kredit təminatının yaxşılaşdırılması ilə bağlı müvafiq dövlət orqanları qarşısında konkret vəzifələr müəyyənləşdirdi və ötən 15 il ərzində, bu vəzifələrin ardıcıl olaraq, həyata keçirilməsini təmin etdi.

Artıq ölkəmizdə iş yerlərinin 75 faizinin, məhz özəl sektorun payına düşməsi və ÜDM-in 83 faizinin bu sektorda istehsal olunması sahibkarlığın iqtisadi inkişafda lokomotiv rolu oynadığını göstərir.

Son illərdə Azərbaycanda dövlət dəstəyi ilə neçə-neçə müəssisə yaradılmasının şahidiyik. Bu müəssisələr həm yerli istehsalı gücləndirir, həm də yeni iş yerlərinin açılmasına xidmət edir. Keçən ilin sonunda dövlət başçımızın iştirakı ilə Sumqayıt Sənaye Parkında 4 müəssisə açıldı və 3 müəssisənin təməli qoyuldu. Bu il orada daha iki nəhəng zavod - "SOCAR Polymer" və azot gübrələri zavodları işə salınacaq. Bu zavodların tikintisinə 2 milyard dollara yaxın vəsait qoyulub. Hazırda Sumqayıt Kimya-Sənaye Parkında 17 rezident fəaliyyət göstərir. İndi ölkəmizin bölgələrində də belə zonalar yaradılır. Mingəçevir Yüngül Sənaye Parkının işə salınması xüsusi qeyd edilməlidir.





Mingəçevir Yüngül Sənaye Parkında 2 iplik fabrikinin istifadəyə verilməsi, ən azı 700-750 nəfərin işlə təmin edilməsi deməkdir.

Əlbəttə ki, Azərbaycanın hərtərəfli və dayanıqlı sosial-iqtisadi inkişafının stimullaşdırılmasının təməlində dövlət başçısı İlham Əliyevin imzaladığı fərman və sərəncamlar və təsdiqlədiyi dövlət proqramları dayanır.

Bir sözlə, Azərbaycan dövlətinin sosial inkişaf sahəsində əldə etdiyi uğurlu nəticələr, deməyə əsas verir ki, Azərbaycan uğurlu inkişafdadır. Ən başlıcası isə, qazanılan iqtisadi uğurlar sosial siyasətin genişlənməsinə yeni imkanlar yaradır. Çox qürurverici ənənədir ki, həyata keçirilən sosial siyasət tamamilə Azərbaycan vətəndaşının həyatını müsbət istiqamətdə dəyişdirməyə, insanların özlərini güvənli hiss etməyə sövq edir. Və qətiyyətlə bildirmək olar ki, Cənab İlham Əliyevin yeritdiyi kurs, nəinki böyük hərflərlə qeyd ediləcək İSLAHAT-dır, hətta islahata inqilabi yanaşma nümunəsidir.

**RƏFİQƏ KAMALQIZI**

# Bakıda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib













***Avqustun 6-da IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində Bakıda abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib.***

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib.

Ümumi sahəsi 1,4 hektar olan həyət Binəqədi rayonu, Abay Kunanbayev küçəsi 3, 3A, 5/13, 5B, 5V, 5A/15 və Süleyman Sani Axundov küçəsi 15/1 ünvanlarında 2650 nəfər sakinin yaşadığı beşmərtəbəli yeddi binanı əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi paytaxt Bakıda həyətlərin ekoloji cəhətdən təmiz saxlanılması və abadlaşdırılması, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol və basketbol meydançaları, müxtəlif idman qurğuları və uşaqlar üçün 3 oyun meydançası salınıb.

Eyni zamanda, ərazidə 5 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyirşər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac, gül kolları əkilib və 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.S Binəqədi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində paytaxtımızda abadlaşdırılan iyirmi səkkizinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Paytaxtımız elmi yarışın keçirildiyi məkan olaraq da sözünü deyir

## *31-ci Beynəlxalq İnformatika Olimpiadasının ölkəmizdə keçirilməsi olimpiada hərəkatını stimullaşdıracaq*





***Bu gün paytaxt Bakı ölkə təhsili üçün əhəmiyyətli hadisələrdən biri olan 31-ci Beynəlxalq İnformatika Olimpiadasına ev sahibliyi edir. Belə bir yarışın paytaxtımızda təşkili ölkəmizin nüfuzundan bir daha xəbər vermiş olur.***

Olimpiadanın paytaxtımızda keçirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikanın elm, texnologiya və mədəniyyət sahələrində əldə etdiyi inkişaf və nailiyyətlərinin mühüm göstəricisidir. Beynəlxalq Olimpiadanın Azərbaycanda keçirilməsi informatika sahəsinin inkişafına da öz töhfələrini verəcəkdir. Olimpiadanın təşkilində əsas məqsədlərdən biri informatika sahəsində qabiliyyətli gəncləri tanıtmaq və kompüter elmlərinin vacibliyini gənclərə çatdırmaqdır.

Ölkəmizdə ilk dəfə keçirilən Beynəlxalq İnformatika Olimpiadasında, Azərbaycan komandası da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyətləri iştirak edirlər.

Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən və ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib, yerlərdə sosial-mədəni infrastruktur obyektləri yenidən qurulub, yeni istehsal, habelə, xidmət müəssisələri istifadəyə verilib. Azərbaycan beynəlxalq miqyaslı mötəbər yarışlara, qlobal forumlara, konfranslara, bir sözlə, nüfuzlu tədbirlərə ev sahibliyi edir. Uğurla inkişaf edən Azərbaycanda bir neçə gün əvvəl 15-ci Avropa Gənclər Yay Olimpiya Festivalına yekun vuruldu. 2012-ci ildə "Eurovision" Mahnı Müsabiqəsi, 2015-ci ildə Birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, 2016-cı ildən bəri "Formula-1" yarışlarının Azərbaycan Qran-Prisi mərhələsi və bir çox digər tədbirlər uğurla keçirilib. Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir. Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanımızın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir. Ölkəmizdəki uğurlu inkişaf, sabitlik və əmin-amanlıq beynəlxalq tədbirlərin keçirilməsində əlverişli məkandır.



Bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları, aparılan islahatlar, yeni layihələrin icrası ölkənin inkişafında əhəmiyyətli rola malikdir. Bu inkişaf nəticəsində müasirləşən və modernləşən Azərbaycan artıq beynəlxalq aləmdə innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları, kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınıb. Azərbaycan Prezidenti İlham Əliyev, bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verir və bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatlar həyata keçirilir.

Həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı Milli Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər, davamlı olaraq, həyata keçirilir. Belə bir zamanda paytaxtımız 31-ci Beynəlxalq İnformatika Olimpiadasına ev sahibliyi edir. Ölkəmizdə keçirilən müxtəlif məzmunlu tədbirlər, idman yarışları, musiqi festivalları və s. ilə yanaşı, Bakı elmi bir yarışın keçirildiyi məkan olaraq, sözünü demiş olacaq. Dünyada neft ölkəsi kimi tanınan Azərbaycanda bu gün intellekt yarışlarının təşkil də təsadüfü deyildi. Təbii ki, ölkəmizdə keçirilən bu cür tədbirlər, xüsusilə, gənclər arasında dostluq, sülh və mədəniyyətlərarası dialoqun inkişafında böyük rol oynayır. İnformatika üzrə ilk Beynəlxalq Olimpiada 30 il əvvəl Bolqarıstanda keçirilib və bu nüfuzlu tədbirə maraq ildən-ilə artmaqdadır. "IOI" iştirakçılarının bir çoxu hazırda startap və innovasiya ilə məşğul olan aparıcı İT mütəxəssisləridir. Bu nüfuzlu beynəlxalq yarışda ölkəmizi indiyə qədər 24 dəfə təmsil edən Azərbaycan komandaları 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə, 5 medal qazanıblar. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın "IOI 2019" nümayəndələrinə ünvanladığı rəsmi məktubunda deyildiyi kimi, informasiya cəmiyyətinin qurulması istiqamətində mühüm addımlar atan ölkəmizdə məktəblilər arasında olimpiada hərəkatı ildən-ilə geniş vüsət almaqdadır. Məktəblilərimiz beynəlxalq olimpiadalarda öz müvəffəqiyyətlərinin davamlı inkişafına nail olaraq, son illər ərzində, ümumilikdə, yüz altmış medal qazanmışlar".

Təbii ki, yüksəliş dövrünü yaşayan Azərbaycanda yarışların keçirilməsi üçün mövcud olan məkanlar tədbirin yüksək səviyyədə təşkil olunmasına əsas verir. Belə ki, əsas yarış Milli Gimnastika Arenasında keçiriləcək. Olimpiada çərçivəsində digər tədbirlərin keçirilməsi üçün isə "Boulevard Hotel" mehmanxanası nəzərdə tutulub. Yarış müddətində məktəblilər "Atletlər şəhərciyi"ndə yerləşdirilib. Burada iştirakçılar üçün əyləncə zonası fəaliyyət göstərir və onlar müxtəlif tədbirlər, maraqlı asudə proqram sayəsində yarışdan kənar vaxtlarını da səmərəli keçirə bilirlər. Mədəni proqramın bir hissəsi kimi, Qobustan, "Yanardağ", "Atəşgah", Nobel qardaşlarının evmuzeyi və bir sıra digər məkanlara ekskursiyalar təşkil olunacaq.

Belə tədbirlərin ölkəmizdə keçirilməsi olimpiada hərəkatını stimullaşdırmaq məqsədi də daşıyır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın "IOI 2019" nümayəndələrinə ünvanladığı rəsmi məktubunda deyilir ki, olimpiada informatika sahəsində yeni istedadların üzə çıxarılması, gənclərin informatikaya marağının daha da güclənməsi və təmsilçi ölkələrin sıralarının genişlənməsi işinə öz töhfəsini verəcəkdir. Biliklərə əsaslanan cəmiyyətin formalaşdığı və rəqəmsal bacarıqların son dərəcə zəruri olduğu indiki dövrdə informasiya-kommunikasiya texnologiyaları elmi potensialın vacib göstəricilərindən birinə çevrilmişdir. İnformatika iqtisadiyyatda, elmdə və cəmiyyət həyatında böyük əhəmiyyətə malikdir. Dünya informasiya şəbəkəsinin yaradılması isə kompüter biliklərinin rolunu xeyli artırmışdır. Beynəlxalq İnformatika Olimpiadası, bu baxımdan, qarşınızda yeni üfüqlər açır. Kompüter elmləri üzrə ən mötəbər müsabiqələr arasında özünəməxsus yer tutan bu bilik yarışı arzularınızın gerçəkləşməsi və həyat yolunuzun müəyyənləşməsinə, əlbəttə, ciddi təsir göstərəcəkdir".

Əlbəttə ki, İnformatika üzrə Beynəlxalq Olimpiada gələcək kompüter elmləri və İT sənayesinin gələcək liderlərini bir araya gətirməkdə mühüm rol oynayacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Hikmət Hacıyev: “Ermənistan tərəfi təxribatçı açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur”



Ermənistanın baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək Xankəndi şəhərində “Qarabağ - Ermənistandır” sözlərini qəti şəkildə rədd edirik. Bu fikri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, Dağlıq Qarabağ - Azərbaycandır! Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissədir. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir. Azərbaycan dövləti və xalqı Ermənistanın işğalçılıq və qanlı etnik təmizləmə vasitəsilə ölkəmizin ərazi bütövlüyünü pozması ilə heç vaxt barışmayacaq və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə imkan verməyəcək.

“Ermənistanın baş naziri N.Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması, Ermənistanla qondarma rejimin birləşdirilməsinə çağırış etməsi Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunun növbəti açıq ifşasıdır. Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırmaq beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə hörmətsizlik və məsuliyyətsizlik kimi qiymətləndirilməlidir. Ermənistan baş nazir səviyyəsində beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atır, təhqir edir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesini məhv edir. Bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk qrupunun həmsədrləri cavab verməlidir”, - deyə Prezident Administrasiyasının şöbə müdiri vurğulayıb.

Hikmət Hacıyev bildirib ki, bu açıqlama ilə Ermənistanın baş naziri, həmçinin özü-özünü inkar edir və bir müddət əvvəl Dağlıq Qarabağ adından guya danışa bilməməsi haqqında bəyanatının cəfəngiyat və yalandan başqa bir şey olmadığını etiraf edir. Bununla, Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmamışdır.

“Ermənistan rəhbərliyini əmin etmək istərdik ki, Ermənistanın 2050-ci ilədək inkişafına dair səsləndirilən məqsədlər utopiya olduğu kimi, Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistana birləşdirilməsi cəhdi də fantaziyadan başqa bir şey deyildir. Ermənistan tərəfi bu təxribatçı və destruktiv açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur və ölkədaxili problemlərdən yayınmaq üçün qəsdən vəziyyəti gərginləşdirir. Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür. Heç kimin şübhəsi olmasın ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini, etnik təmizləməyə məruz qalmış vətəndaşlarının öz doğma torpaqlarına geri qayıtmasını və beynəlxalq hüququn aliliyini təmin edəcəkdir”,- deyə Prezident Administrasiyasının rəsmisi vurğulayıb.

# Azərbaycan XİN: “Ermənistanın baş nazirinin Xankəndidəki çıxışı onun həqiqi simasını üzə çıxardı”



Ermənistanın baş nazirinin avqustun 5-də Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında saxlanılan Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərində “ümumermәni oyunları”nın açılışında çıxış edərək, reallıqdan tamamən uzaq olan populist bəyanatlar səsləndirməsi onun bölgədə və ümumiyyətlə, dünyada baş verənlərdən xəbərsiz və nə dərəcədə aciz birisi olduğunu nümayiş etdirir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatında yer alıb.

Qeyd edilir ki, bəyanatının əsasən daxili auditoriyaya nəzərdə tutulmasına baxmayaraq, bu, Ermənistanın baş nazirinə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin anneksiyasına çağıran fikirlər səsləndirməsinə heç bir əsas vermir. “Ermənistan baş nazirinin aqressiv bəyanatları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə illərdir ki, aparılan danışıqlar prosesinin ruhu və mahiyyəti ilə, o cümlədən Ermənistan və Azərbaycan arasında keçirilən sonuncu görüşlər zamanı aparılan müzakirələrlə açıq ziddiyyət təşkil edir.

Bu, həmçinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə böyük zərbədir. Ermənistanın siyasi rəhbərinin uzun illərdir ki, aparılan danışıqların predmetinə tam zidd olan bu bəyanatı, elə Ermənistanın özünün səsləndirdiyi, “münaqişənin yalnız sülh yolu ilə həlli” çağırışına uyğun gəlmir. N.Paşinyanın Xankəndidə etdiyi çıxışı onun həqiqi simasını üzə çıxarmış oldu.

Bütün beynəlxalq ictimaiyyət işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrimiz də daxil olmaqla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü tanıyır. Ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstək, istər BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, digər beynəlxalq təşkilatların qərar və qətnamələrində, istərsə də ikitərəfli əsasda qəbul edilmiş çoxsaylı sənədlərdə öz əksini tapıb.

Azərbaycan öz ərazilərinin işğalı ilə heç zaman barışmayacaq və işğal olunmuş torpaqlarımızın azad olunması və öz evlərindən zor gücünə didərgin salınmış məcburi köçkünlərimizin bu torpaqlara geri qayıtmasını təmin etmək üçün var gücü ilə səylərini davam etdirəcək.

Niyyəti həqiqətən inkişaf və tərəqqi olan bir ölkənin rəhbərliyi təcavüzkar siyasət arxasında gizlənərək növbəti 30 il hədəfləyən xəyali məqsədlər güdməz, əksinə, mövcud vəziyyəti qiymətləndirərək, beynəlxalq hüquqa hörmət əsasında qonşu ölkələrlə münasibətləri normallaşdıraraq daha real nəticələr əldə etməyə hədəflənər. Görünür Ermənistanın hazırkı rəhbərliyi boş vədlərlə özünü və Ermənistan xalqını aldatmaqla məşğuldur. Bölgədə yaşanan bütün gərginliklərin, etnik təmizləmə siyasətinin qurbanı olan yüz minlərlə insanın fundamental hüququnun pozulmasının, münaqişənin sülh yolu ilə həllinə vurulan zərbənin və beləliklə də yaranmış vəziyyətin tam məsuliyyəti Ermənistan üzərindədir”,- deyə bəyanatda vurğulanır.

# “Sözsüz ki, bu sərəncamlar axırıncı deyil”



“Ümumiyyətlə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilən müşavirələr ənənə halını alıb”. Bunu SİA-ya açıqlamasında millət vəkili Tahir Rzayev deyib.

Deputatın sözlərinə görə, bu müşavirələrin keçirilməsi görülən işləri qiymətləndirmək, nəticələri araşdırmaq, qarşıda duran vəzifələri təhlil etmək və qoyulan vəzifələrə münasibət bildirmək baxımından çox əhəmiyyətlidir: “Sözsüz ki, Prezident İlham Əliyevin yanında keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirə də son 6 ay ərzində ölkədə baş verən hadisələrə iqtisadi-sosial inkişafa, eləcə də dünya reallıqlarına bir baxış idi. Cənab Prezident də öz çıxışında göstərdi ki, artıq Azərbaycan son illərdə dünyanın bir hissəsi kimi özünün iqtisadi inkişaf yolundadır. Biz daimi olaraq iqtisadi-sosial inkişafa diqqəti artırırıq. Əlbəttə ki, Azərbaycan dayanıqlı inkiaf yolu ilə gedir. Bu inkişafın təməlində, mərkəzində Azərbaycan insanının rifah halı dayanır. Ölkə rəhbəri bunu dəfələrlə xatırladır. Əlbəttə ki, ölkədə gedən inkişaf bilavasitə Azərbaycan xalqının mənafeyinə istiqamətləndirilib. Biz son dövrlərdə qəbul olunan sosial məsələlərə dair sərəncamlarla bunu daha aydın görürük. İstər insanların pensiyalarının, təqaüdlərinin artırılması, birdəfəlik müavinətlərin verilməsi və s. mühüm tədbirlər var ki, bu bilavasitə insanların həyat şəraitinin yaxşılaşdırılmasın istiqamətlənib.

2018-ci ilin 11 aprelində keçirilən prezident seçkiləri zamanı ölkə başçısı öz platformasında bəyan etmişdi ki, ölkədə sosial islahatların davam etdirilməsi sürətləndiriləcək. Prezident seçkilərindən az müddət sonra artıq sistemli şəkildə bu sosial paket həyata keçirildi və dünyada analoqu olmayan sərəncamlar imzalandı. Sözsüz ki, bu sərəncamların imzalanması axırıncı deyil. Cənab Prezident dəfələrlə müşavirələrdə, insanlarla görüşündə qeyd edirdi ki, bu sosial məsələlər daimidir və mən tərəfdən sistemli olaraq bu yerinə yetiriləcək. Əlbəttə ki, biz yeni sərəncamlar gözləyirik və bu sərəncamlar da veriləcək. Bunun üçün bünövrə var”.

# Xalidə Quliyeva: “Prezidentin kino xadimlərini təltif etməsi Azərbaycan mədəniyyətinə göstərdiyi diqqətin bariz nümunəsidir”



Bu yaxınlarda Prezident İlham Əliyev Milli Kino Günü münasibətilə bir qrup kino xadimlərinin təltif edilməsi haqqında sərəncamlar imzalayıb. Fəxri ad alan kino xadimləri arasında tanınmış aktrisa Xalidə Quliyeva da var.

Ölkə başçısı tərəfindən “Xalq artisti” fəxri adı ilə təltif edilən aktyor bu haqda AZƏRTAC-a açıqlama verib: “Prezident İlham Əliyevə məni “Xalq artisti” fəxri adına layiq gördüyü üçün təşəkkür edirəm. Fəxri adlara layiq görülən həmkarlarımı da təbrik edirəm. Ölkə başçısı bir neçə kino xadimlərini fəxri adlarla təltif edərək Azərbaycan mədəniyyətinə hər zaman diqqət göstərdiyini bir daha sübut etdi. Prezidentin bu addımından sonra biz kino xadimləri yaxşı kinolarda çəkilib, tamaşaçılara təqdim etməliyik. Azərbaycan kinosunu bütün dünyada təbliğ etmək biz mədəniyyət xadimlərinin borcudur”.

Xalq artisti qeyd edib ki, müstəqil Azərbaycan Respublikası bu gün sürətli inkişaf yolundadır: “Bu gözəlliyi hamımız görürük. Onu da qeyd edim ki, bu inkişaf başqa sahələrlə yanaşı, eyni zamanda, mədəniyyətimizin və incəsənətimizin də inkişafına kömək edir. Sözsüz ki, bu inkişaf, canlanma Prezidentimizin mədəniyyətə, xüsusilə də kino sənətinə qayğı və diqqəti sayəsində mümkün olub”.

Prezidentin müvafiq sərəncamları ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin silsilə tədbirlərlə qeyd edildiyini və ölkəmizdə bu ilin “Nəsimi ili” elan olunmasının əhəmiyyətindən danışan aktrisa deyib ki, bütün bunlar onun həyatında çox böyük önəm daşıyır: “Bilirsiniz ki, “Nəsimi” filmində Nəiminin qızı Fatimə obrazını mən canlandırmışam. Bu ilin böyük mütəfəkkir Nəsiminin adı ilə bağlı olması mənim üçün də olduqca əhəmiyyətlidir. Buna görə özümü xoşbəxt hesab edirəm”.

# 2019-cu ilin birinci yarısının sosial-iqtisadi göstəriciləri Azərbaycanın dayanıqlı inkişafını təsdiqləyir



*Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Aydın Hüseynovun yap.org.az-a müsahibəsi*

***- Aydın müəllim, 2019-cu ilin birinci yarımilinin sosial-iqtisadi vəziyyətini necə qiymətləndirərdiniz?***

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu və iqtisadi islahatlar nəticəsində ölkəmizdə iqtisadi və siyasi sabitlik möhkəmlənməkdə, iqtisadi inkişaf dinamikası davam etməkdədir. Aparılan məqsədyönlü və mükəmməl siyasətin nəticəsində 2019-ci ilin ötən 6 ayı ərzində ölkəmizin sosial-iqtisadi inkişafı davam edib, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft istehsalı və ixracının həcminin artması, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli irəliləyişlərə nail olunub, əhalinin rifah halının daha da yüksəldilməsi təmin edilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilmiş müşavirədə qeyd olunduğu kimi iqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artıdıbdır. Prezident İlham Əliyevin uzaqgörənliklə "Azərbaycan iqtisadiyyatı neftdən asılı olmadan inkişaf edəcək" fikri hazırda tam özünü təsdiq etməkdədir. Azərbaycan iqtisadiyyatının çoxşaxəli olması və və neftdən kənar sahələrin artımı iqtisadi dinamikanın dayanıqlılığını təmin edib. Azərbaycanın dövlət başçısının mükəmməl iqtisadi modeli sayəsində neftin ucuzlaşmasının ölkə iqtisadiyyatına təsirləri zəif hiss olunur. Bu gün qeyri-neft sənayesində artım 15,7 faizdir. Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir.

Ötən 6 ayda iqtisadi sahədə ən mühüm nailiyyətlərdən biri kənd təsərrüfatında rekord göstəricinin əldə edilməsidir. Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artıb, bitkiçilikdə 25 faiz artım əldə olunub. Bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir.

Cari ilin birinci yarısında ticarət dövriyyəmiz 20 faizdən çox artıb. Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir. İnflyasiya cəmi 2,5 faizdir. Ötən 6 ayda əhalinin gəlirləri 6,6 faiz artıb, inflyasiya 2 faiz təşkil edib. Yəni əhalinin real gəlirləri inflyasiyanı 3 dəfə üstələyib. Ölkəmizdə həyata keçirilən düşünülmüş iqtisadi siyasət maliyyə-büdcə-valyuta ehtiyatlarının davamlı şəkildə artmasını təmin etməkdədir. Valyuta ehtiyatlarımız rekord həddə - 49 milyard dollara çatıb. Bu gün əksər ölkələrin valyuta rezervləri azaldığı halda, Azərbaycanın valyuta ehtiyatları artır. Strateji ehtiyatlarının artması Azərbaycanda maliyyə sabitliyinin və iqtisadi inkişafın təmin edilməsinə mühüm rol oynayır. Valyuta ehtiyatlarının artması güclü sabitlik potensialını möhkəmləndirir. Valyuta ehtiyatlarının yüksək artım tempi güclü iqtisadi təhlükəsizlik yastığının təmin edilməsində də xüsusi əhəmiyyət kəsb edir. Cari ildə yürüdülən uğurlu siyasət Azərbaycanın xarici borcunun azalmasına da səbəb olubdur. Hazırda ölkəmizin xarici borcu ümumi daxili məhsulun 19 faizini təşkil edir. Dövlət başçısının tapşırığına əsasən xarici borcun yaxın illərdə daha da azaldılması qarşıya vəzifə kimi qoyulub. Bu məsələ ilə bağlı müvafiq proqram hazırlanıb və həyata keçirilməkdədir.

***- Sosial sahədə hansı müsbət dəyişikliklərə nail olunub?***

- 2019-cu ilin ötən ayları sosial baxımdan xüsusilə mühüm hadisələrlə yadda qalıb. Sosial sahədə həqiqi mənada inqilabi addımlar atılıbdır. Sosial paket adlanan islahatların gerçəkləşməsi sayəsində 2 milyondan artıq vətəndaşın sosial vəziyyətinin yaxşılaşmışdır. Cənab Prezidentin 2019-cu ilin ötən dövründə 2 dəfə imzladığı sərəncam və fərmanlar çox böyük sosial paketin gerçəkləşməsini təmin edilibdir. Belə ki, minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılıb, birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artırılıbdır. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Digər sosial qrupların sosial müdafiəsinin gücləndirilməsi, maaşların davamlı artımı, tələbələrin təqaüdlərinin artırılması, təhsil, səhiyyə və mədəniyyət işçilərinin əməkhaqlarının artırılması, şəhid ailələri və məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması, əlillərin və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilib. Azərbaycan hökuməti əlavə gəlirlərin hamısını sosial sahəyə yönəldir. Dövlət başçısının vurğuladığı kimi sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir. Ümumiyyətlə, insanların daha da yaxşı yaşaması və onların illik gəlirlərinin artmasına dövlət dəstəyinin gücləndirilməsi hökumətin diqqət yetirdiyi əsas prioritetlərdən biridir. Məsələn, birinci yarımilikdə büdcəyə vergi və gömrük orqanlarının xətti ilə əlavə olaraq 440 milyon manatdan çox vəsait daxil olub. Həmin vəsaitlər məhz bu sosial tədbirlərə yönəldilir. Dövlət başçısının qeyd etdiyi kimi respublikamızın maliyyə resurslarının və büdcə gəlirlərinin artması davam etdikcə, sosial sahəyə ayrılan vəsaitlərin həcmi də artacaq, maaş və pensiyaların, təqaüdlərin qaldırılması siyasəti davam etdiriləcək.

***- Azərbaycanın qeyri-neft ixracının artması ilə bağlı vəziyyəti necə şərh edərdiniz?***

- Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığa dövlət dəstəyi tədbirlərinin artırılması yürüdülən siyasətin əsas prioritetlərindəndir. Prezident İlham Əliyevin iqtisadi islahatlar paketi çərçivəsində sahibkarlığın inkişafı ilə bağlı qəbul etdiyi qərarlar iqtisadiyyatın davamlı inkişafının təmin olunması baxımından strateji xarakter daşıyır və sahibkarlığın inkişafı üçün yeni dövrün başlanmasına səbəb olub. Bu siyasətin nəticəsi olaraq ölkəmizdə biznesin rəqabətqabiliyyətli məhsul istehsalı möhkəmlənməkdədir. Bu isə qeyri-neft ixracının stimullaşdırılmasına səbəb olur. Birinci yarım ildə qeyri-neft ixracı 15 faiz yüksəlib. Bu isə artıq iqtisadiyyatın qeyri-neft sektorunun ixracda möhkəm və dayanıqlı yer tutduğunu təsdiqləyir. Yaxın illər ərzində bu rəqəmin daha da artırılması hədəf seçilib, eyni zamanda, qeyri-neft məhsullarının ixracının artırılması basilica məqsədlərdəndir.

***- Regionların inkişafı, yeni iş yerlərinin yaradılması istiqamətində hansı addımlar atılmaqdadır?***

- Regionların sosial-iqtisadi inkişafı ilə bağlı yürüdülən siyasət cari ilin ötən 6 ayı ərzində ölkə iqtisadiyyatının şaxələnməsinə, qeyri-neft sektorunun inkişafına möhkəm zəmin yaradıb. Ötən 6 ayda regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən siyasət bölgələrdə iqtisadi artımın böyüməsinə, qeyri-neft sektorunun inkişafının təmin edilməsinə, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasına, bölgələrin yeni istehsal, emal və xidmət sahələrinin yaranmasına səbəb olubdur. Regionların inkişafı ilə bağlı dördüncü Dövlət Proqramının təsdiq olunmas və icrasına başlanması bölgələrdə, rayonlarda baş verən inkişaf, canlanma, iqtisadi aktivlik, sənaye müəssisələrinin yaradılması son nəticədə işsizlik probleminin həllinə səbəb olmaqdadır. Regionlarda kiçik və orta sahibkarlığın genişləndirilməsində əhəmiyyətli olan sənaye məhəllələrinin yaradılması davam etdirilir. Artıq Neftçala və Masallı sənaye məhəlləri fəaliyyət göstərir, Hacıqabul və Sabirabad sənaye məhəlləri isə yaxın vaxtlarda sahibkarların istifadəsinə veriləcək. Regionların inkişafı ilə bağlı strategiyanın davam etdirilməsi bölgələrdə işsizliyin səviyyəsinin azalmasına mühüm təsir göstərib. Yeni müəssisələrdə yaradılmış iş yerlərinin sayının artması işsizlik səviyyəsinin 1 faizə yaxın aşağı düşməsinə səbəb olub. Hazırda ölkəmizdə işsizlik səviyyəsi 5 faiz təşkil edir ki, bu da dünya göstəricisindən xeyli aşağıdır.

***- Dövlət başçısı müşavirədə islahatların davam etdirilməsinə və gələcək inkişaf hədəflərinə də toxundu...***

- Prezident İlham Əliyevin müşavirədə iqtisadiyyatın yeni inkişaf hədəfləri ilə bağlı fikirləri konkret istiqamətlərin müəyyənləşdirilməsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Cənab Prezidentin proqram xarakterli çıxışı Azərbaycanın indiki iqtisadi inkişaf mənzərəsini və qarşıda duran yeni iqtisadi-siyasi, sosial tədbirlərin ssenarilərini, atılacaq addımların hədəflərini özündə əks etdirir. Makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, rəqabət və əlverişli biznes mühitinin, şə?a?ığın təmin edilməsi, dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı islahatların davam etdirilməsi, investisiya proqramının tam şəkildə icra edilməsi baslıca istiqamətlər kimi müəyyənləşdirildi. Bundan başqa, turizm, kənd təsərrüfatı və sənayenin inkişaf etdirilməsi, sahibkarlığa dövlət dəstəyi və sahibkara güzəştli şərtlərlə kreditlərin verilməsi, infrastruktur və sosial layihələrin davam etdirilməsi iqtisadi prioritetlər kimi müəyyən olunub. Xarici investisiyaların cəlb edilməsi, nağdsız ödənişlərin həcminin artırılması, şəhər infrastrukturunun daha da yaxşılaşdırılması, süni qiymət artımlarının qarşısının alınması, inhisarçılığa qarşı mübarizə və digər tədbirlərlə bağlı konkret tapşırıqlar verildi. Ümumiyyətlə, 2019-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafı qarşıdakı aylarda daha da artaraq Azərbaycanın dayanıqlı inkişafını təmin edəcəkdir.

## Bu il muxtar respublikada 2 min 293 yeni iş yeri açılıb




İlin birinci yarısında muxtar respublikada 2293 yeni iş yeri açılıb ki, bunun da 99 faizi daimi iş yerləridir. 1329 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işə göndərilib, 80 nəfər ictimai işlərə cəlb edilib, kənd xidmət mərkəzlərində mövcud vakant yerlər üzrə 28 nəfər işlə təmin olunub. Əmək bazarının tələbinə uyğun təşkil olunan peşə kurslarına 178 nəfər cəlb edilib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu diqqətdə saxlanılıb, qadınların və gənclərin özünüməşğulluğunu təmin etmək üçün bir sıra sosial layihələr həyata keçirilib, peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə işaxtaranlar məlumatlandırılıb.

Cari ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması müxtəlif təsərrüfat sahələrində çalışanlar üçün yeni imkanlar açıb. Ötən dövr ərzində 60 ailənin özünüməşğulluğu təmin edilib.

"Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrasına uyğun olaraq əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii və texniki iş üsullarının, xalça çeşnilərinin bərpası və inkişaf etdirilməsi məqsədilə "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" layihəsi, habelə cəzaçəkmə müəssisəsində xalçaçı kursu təşkil olunub.

Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı tərəfindən maliyyələşdirilən "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasında maliyyə savadlılığı üzrə "Gələcəyini planlaşdır" mövzusunda keçirilən təlimlərə sağlamlıq imkanları məhdud 44 qadın cəlb edilib. Bu istiqamətdə həyata keçirilən tədbirlər muxtar respublika sakinlərinin məşğulluq səviyyəsini yüksəltməklə yanaşı, dövlətimizin öz vətəndaşlarına qayğısının ifadəsi kimi dəyərləndirilir.

# Ermənistan mətbuatı nə yazır?

## 89 ermənipərəst konqresmen Trampa qarşı

### Erməni həyasızlığı




ABŞ Konqresinin 89 nəfər ermənipərəst konqresmeni Donald Trampın qondarma "DQR"in minalardan təmizlənməsi üçün ayrılan maliyyəni dayandırmasına qarşı bir araya gəliblər. Amerika Erməniləri Milli Komitəsinin məlumatını "news.am" saytı yayıb. Adıçəkilən mənbə qeyd edib ki, bir çoxlarının Nümayəndələr Palatasını təmsil edən Konqres üzvləri digər ermənipərəst demokratlar - Bred Şermanın və Ticey Koksun təşəbbüsünə dəstək veriblər. Belə ki, adıçəkilən şəxslər Konqresdə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin rəhbəri Mark Qrinin "DQR"in minalardan təmizlənməsi proqramı kampaniyasına qoşulublar.

Eyni zamanda, ABŞ-ın Nümayəndələr Palatasının üzvləri, ölkə prezidentliyinə namizədliklərini irəli sürmüş Tulsi Qabbard və Tim Rayan da sözügedən kampaniyaya qoşulublar.

Xatırladaq ki, ABŞ prezidenti Donald Trampın administrasiyası bu yaxınlarda "DQR"ə maliyyənin ayrılmasının qarşısını alan qərar qəbul edib. Ermənilər həyasızlıqla iddia edirlər ki, guya bu proqram ərazilərin minalardan təmizlənməsi üçün həyata keçirilir. Lakin bir sıra məlumatlara görə, separatçılar ayrılmış maliyyəni tamamilə fərqli istiqamətlərdə xərcləyirlər.

Bu arada ABŞ-ın Erməni Milli Komitəsinin icraçı direktoru Aram Ambaryan həyasızcasına bəyan edib ki, Tramp böyük səhvə yol verib və guya Azərbaycan tərəfinin tələbi qarşısında həmin qərarı verib. "Prezident Tramp səhv edir" deyə iddia ilə çıxış edən Ambaryan, bununla ABŞ dövlətinin daxili işlərinə müdaxilə etdiyinin fərqinə varmır və unudur ki, artıq bu qərar qəbul olunub və həmin qərarın qəbul olunmasında, bilavasitə ABŞ rəhbərliyinin iradəsi dayanıb.

### "Joxovurd": "Ermənistanda daimi yaşayan əhalinin sayı azalıb"

"Ermənistanın daimi yaşayan əhalisi, son 6 ay ərzində, 3700 nəfər azalıb. Yəni Ermənistan vətəndaşlarının azalması rəsmi şəkildə təsdiqini tapıb". Bu barədə ölkənin "Joxovurd" qəzeti yazır. Nəşr qeyd edir ki, Ermənistanın Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin 1 iyul tarixinə görə, Ermənistanda daimi yaşayan əhalinin sayı 2 milyon 961 min 600 nəfər təşkil edir. "Ötən ilin analoji göstəriciləri ilə müqayisədə həmin göstərici 8200 nəfər aşağı düşüb" deyə yazan erməni qəzeti qeyd edir ki, daimi yaşayan əhalinin əsas azalması vilayət şəhərlərində, kənlərdə, xüsusilə, Şirak vilayətində 2200 nəfər müşahidə olunub.

Bununla yanaşı, doğum sayları da azalıb. "Əgər cari ilin birinci yarımilliyində onların sayı Ermənistanda 16111 nəfər idisə, 2018-ci ildə həmin rəqəm 16261 nəfər idi, 2017-ci ildə isə 17171" deyə erməni nəşri yazır.

Adıçəkilən qəzet ölüm hallarının da artığına diqqət yetirib. "Cari ilin 1 iyul tarixi ilə, ötən ilin mövcud tarixini müqayisə etsək, ölüm halları 572 dəfə artıb" deyə "Joxovurd" bildirib.

### Rusiya aviaşirkəti Gümrüyə uçuşlarını dayandırır: "Yanacağı oğurlayırlar"

Rusiyanın Ermənistanın Gümrü şəhərinə uçan "Pobeda" loukosteri (aviaşirkəti) qış mövsümündən başlayaraq, həmin şəhərə reyslərini dayandıracaq. Bu barədə ermənilərin "asor.am" saytı Rusiyanın İTAR-TASS agentliyinə istinadən məlumat verib. Reyslərin dayandırılmasına səbəb isə, təyyarələrin Gümrüdə yanacaqla tam şəkildə təmin olunmamasıdır. SİTAT: "Təssüf ki, Gümrü aeroportundakı yanacaqdoldurma şirkəti yanacağı, mütəmadi tərzdə, lazım olduğu qədər təmin etmir. "Pobeda" dəfələrlə aeroportun rəhbərliyinə müraciət edərək, məsələni araşdırmağı tələb edib. Lakin aeroportun gördüyü ölçülər nəticəsiz qalmaqla yanaşı, yanacaqdolduranlar öz köhnə praktikalarını tətbiq edirlər" deyən şirkət təmsilçisi, yalnız yay aylarının sonlarına qədər, öz müştərilərini pis vəziyyətdə qoymamaq üçün Gümrüyə planlaşdırılmış səfərlərin ediləcəyini bildirib və qeyd edib ki, qış mövsümündən başlayaraq, bu marşrutda bilet satışları dayandırılacaq.

Şirkətin nümayəndəsi də təsdiq edib ki, artıq bilet satışları dayandırılıb. Hazırda "Pobeda" Moskvadan Gümrüyə bir həftədə 10 reys uçuş edir. Qışda isə həftədə 7 reys təşkil olunub. Adıçəkilən lukoster Gümrüyə reyslərini 2016-cı ilin dekabrında açmışdı.

**R.RƏSULOV**

---

## Paşinyan Xankəndidə etiraz aksiyası ilə qarşılanıb



Azərbaycanın işğal olunmuş ərazilərində ermənilər etiraz aksiyaları keçirir. Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndiyə gəlməsindən istifadə edən narazı kütlə separatçı qurumun rəhbəri Bako Saakyanın əleyhinə etiraz aksiyaları keçirib. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, kütlə qarşısında çıxış etməyə çalışan Bako Saakyana imkan verilməyib. Ermənistanın təhlükəsizlik xidmətinin rəhbəri Artur Valentenyan etirazçılarla dialoq qurmağa çalışsa da buna nail ola bilməyib. Aksiya iştirakçıları bildiriblər ki, onlar heç kimi dinləmək istəmirlər. Narazı kütlənin sözlərinə görə, Bako Saakyan və ətrafı burada 20 ildən çoxdur ki, soyğunçuluq və talanla məşğuldur. "Bako Saakyan da Manvel Qriqoriyan kimilərdəndir, onun haqqında araşdırma aparılsın. O, cinayətkardır, gördükləri işlər isə göz qabağındadır. Bunlar bölgədə quldurluqla məşğuldurlar. Kifayətdir, bizim səbir kasamız dolub. Quldur dəstə getməsə biz daha sərt addımlar atacağıq",-deyə narazı kütlə bəyan edib.

## "Erməni hakimiyyəti iynə üstündə olan şara bənzəyir"

"Bu gün Paşinyan Xankəndinə gəlmişdir. Axşam mitinqdə nitq söyləyəcəyi və pan-erməni idman oyunlarının açılışına qatılacağı haqqında məlumat verilir. Düşünürəm ki, bu, uzun illər davam edən ümumi erməni oyunlarının davamıdır. Məhz ermənilər oyunları ilə bütün dünyanı aldadıb və Azərbaycan torpaqlarını uzun müddətdə işğal altında saxlamağa imkan vermişdir". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Millət vəkilinin sözlərinə görə, Paşinaynın Qarabağa səfərləri və sərsəm açıqlamalar verməsi Ermənistanın ATƏT-in Minsk Qrupunun fəaliyyətinə məhəl qoymadığını göstərir: "Paşinyanın açıqlamaları bir tərəfdən erməniləri sakitləşdirməyinə və hakimiyyətini əldə saxlamağına hesablanıb. O, çox hiyləgərdir və hər bir vəziyyətdən istifadə edərək yalan vədlər və açıqlamalarla öz mövqeyini möhkəmlətmək istəyir. Amma Paşinyanın bütün bu cəhdlərinə baxmayaraq Ermənistanda yeni müxalif qüvvələr birləşməkdədir və Paşinyanın sonunu yaxınlaşdırır.

Düşünürəm ki, Paşinyanın taleyini Köçəryanın və Sərkisyanın taleyi gözləyir. Çünki, yalanın axırı olmur. Boş dövlət xəzinəsi üzərində verilən vədlər icra olunmayanda xalqın qəzəbinə gələr. Ümumiyyətlə erməni hakimiyyəti iynə üstündə olan şara bənzəyir. Yəni, hər an partlamaq ehtimalı günü-gündən böyüməkdədir. Ermənistan iqtisadiyyatını qurmaq üçün torpaqlarımızdan əl çəkməli və Azərbaycanla qonşuluq əlaqələri yaradaraq iqtisadi böhrandan çıxmağa çalışmalıdır. Əks halda hakimiyyətə kim gəlsə də və populist çıxışlar edərək xalqın könlünü almaq istəsə də onun hakimiyyətdə qalması heç vaxt uzun müddətli ola bilməz".

# "Paşinyan Kardaşyanın yerini tuta bilməz"

"Amerikadakı tanınmışların arasında 15 ən çox yalan danışanı müəyyənləşdirilərkən bəlli olub ki, onlardan biri də Kim Kardaşyandır. Özü də digər tanınmışlar bir-iki dəfə yalan danışıblarsa, madam Kardaşyanın yalanlarının sayı-hesabı yoxdur. Amma əgər söhbət yalandan gedirsə, Kardaşyan daha bir tanınmış soydaşı var ki, ona qibtə edə bilər. Bu, hakimiyyətə gəlməsindən cəmisi 6 ay sonra seçicilərinin "sut", yəni yalançı ayaması verdikləri Nikol Paşinyandır. Hayların təbirincə desək, Sut Nikol dünən Xankəndində yenə ağzı köpüklənə-köpüklənə Ermənistanın böyük perspektivindən dəm vururdu. Guya 30 ilə onların ordusu dünyadakı 20 ən güclü ordudan biri olacaqmış. ÜMD-ni 15 dəfə, Ermənistanda yaşayanların sayını 2,5 dəfə artırcaqlarmış. Bunu özü də o adam deyir ki, cəmisi iki gün ondan qabaq dövlətinin iflic vəziyyətində olduğunu bildirirdi". Bunu SİA-ya millət vəkili Sahib Alıyev deyib.

Deputatın sözlərinə görə, hazırda depopulyasiya ilə üzləşən əhalisi və Ümumi Daxili Məhsulu Azərbaycanınkından təqribən 4 dəfə az olan, "Global Firepower"-in 2019-cu il üçün tərtib etdiyi reytinq cədvəlində ordusu bizimkindən 44 pillə geridə qalan, bütün regional və qlobal layihələrdən təcrid edilən, sərhədlərini özü qoruya bilməyən bir ölkənin 30 ilə regionun ən qüdrətli dövlətinə çeviriləcəyi elə "Böyük Ermənsitan" xülyasının reallaşması kmi bir şeydir: "Müstəqillik əldə edəndən üzü bəri Ermənistanın keçdiyi yol, üzləşdiyi problemlər göstərir ki, rəsmi İrəvan regionda yeridilən işğalçılıq siyasətində altçilikdən əl çəkməsə, haylar Paşinyana sadəcə Sut Nikol deməyəcək, Köçəryan-Sərkisyan cütlüyü kimi onu da lənətləyəcəklər.

O ki qaldı Sut Nikolun pan-hay oyununda səsləndirdiyi "Qarabağ Ermənistandır" fikirlərinə, bu, bir daha onun populist olduğu qədər də məsuliyyətsizliyindən xəbər verir. Qoy desin, bununla özü də fərqində olmadan torpaqlarımızın geri qaytarılmasının tezləşdirilməsi üçün bir növ Azərbaycana xidmət göstərir. Çünki belədə biz həmsədr dövlətlərdən soruşa bilərik və soruşuruq: əgər Ermənistanın başında duran adam Qarabağı ölkəsinin bir parçası sayırsa, onunla hansı danışıqlar, nəyin danışıları aparılmalıdır və məsələ təkid edilkəri kimi necə ancaq sülh yoluyla həllini tapmalıdır? Bir daha vurğulayırıq, Paşinyan bu sərsəmləmələri ilə əslində bizə qarşı çıxış etmir, havadarlarına riyaraklq və məkr üçün manevr imkanı buraxmır.

Sonda Kardaşyan-Paşinyan cütlüyü ilə başladığım kimi onlarla da qurtarmaq istəyirəm. Aydındır ki, xaraktercə bənzəsələr də, Paşinyan gedib Amerikada Kardaşyanın yerini tuta bilməz və bilməyəcək. Ancaq nəzərə alsaq ki, madam Kardaşyan dünyadakı ən populyar hay hesab olunur, o bir gün gəlib Ermənistanda Paşinyanı əvəz və fikrimcə haylara da, elə havadarlarına da ondan daha yaxşı xidmət edə bilər. "Qarabağın Ermənistan olması"na gəldikdə isə paşinyanlar yaxşı düşünsələr görərlər ki, həm tarixi, həm də bu günkü reallıqlar baxımından Ermənistanın Azərbaycanın bir hissəsi olmaq perspektivi daha böyükdür".

# Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü: yenidənyüklənmə şansı

***Bu il oktyabrın 25-26-da Azərbaycan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə ev sahibliyi edəcək. Təşkilatın miqyası, onun siyasi və iqtisadi potensialı, dünya siyasətinə təsir imkanları nəzərə alınmaqla bu hadisənin ölkəmiz üçün əhəmiyyəti olduqca böyükdür. Bu Zirvə Görüşü müstəqil Azərbaycanın tarixində ən iri beynəlxalq siyasi tədbirlərdən biri olacaq. Politoloqların və ekspertlərin diqqət yetirdikləri daha bir mühüm məqam ondan ibarətdir ki, 1989-cu ildə keçirilmiş Belqrad Zirvə Görüşündən 30 il sonra Azərbaycanın timsalında Avropa qitəsi BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatın iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarını yenidən qəbul edəcək.***



**Aslan Aslanov**
**AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti**

## Zərurətdən yaranan birlik

Qoşulmama Hərəkatı dünyanın 120 ölkəsini birləşdirir. Hərbi siyasi bloklarda iştirakdan imtina, xalqların müstəqillik və hüquq bərabərliyi prinsipləri əsasında dinc yanaşı yaşaması bu ölkələrin xarici siyasət kursunun əsası hesab edilir. Təşkilat 1955-ci ildə Asiya və Afrika ölkələrinin Bandunq Konfransında təsis edilib. O vaxt gənc dövlətlər postmüstəmləkə asılılığından azad və müasir iqtisadiyyat qurmaq imkanını təmin edən inkişaf yolunu, daha ədalətli və optimal beynəlxalq münasibətlər sisteminin qurulması yollarını axtarırdılar. Qoşulmama Hərəkatının banilərindən biri, 1945-1967-ci illərdə İndoneziyanın Prezidenti olmuş Əhməd Sukarnonun o vaxt qeyd etdiyi kimi, Qoşulmama Hərəkatının yaradılmasının əsası coğrafi, irqi və dini birlik deyil, "zərurətdən yaranan birlik" idi. Müharibəsiz dünyaya ehtiyac vardı, çünki Qoşulmama Hərəkatı soyuq müharibə, birinin mərkəzi SSRİ, digərinin mərkəzi ABŞ olan iki blokun geosiyasi, hərbi, iqtisadi və ideoloji qarşıdurması dövründə müəyyən mənada çəkindirici amil kimi formalaşmışdı. İqtisadi və sosial tərəqqiyə, inkişaf üçün ədalətli və bərabərhüquqlu şəraitə ehtiyac vardı.

Bandunq Konfransında qəbul edilmiş Ümumi sülhə və əməkdaşlığa dəstək haqqında Bəyannamədə ölkələrin dinc yanaşı yaşamasının və əməkdaşlığının on prinsipi şərh edilmişdi: əsas insan hüquqlarına, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə hörmət; bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət; bütün irqlərin hüquq bərabərliyinin, bütün böyük və kiçik millətlərin bərabərliyinin tanınması; başqa ölkəyə hərbi müdaxilədən və onun daxili işlərinə qarışmaqdan çəkinmə; BMT Nizamnaməsinə müvafiq olaraq, hər bir ölkənin fərdi və kollektiv müdafiə hüququna hörmət; kollektiv müdafiə barədə sazişlərdən böyük dövlətlərdən hər hansı birinin şəxsi maraqları üçün istifadə edilməsindən çəkinmə; hər hansı ölkənin başqa ölkələrə təzyiq göstərməkdən çəkinməsi; hər hansı ölkənin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı təcavüz və ya güc tətbiqetmə aktlarından, yaxud bu cür təhdidlərdən çəkinmə; bütün beynəlxalq mübahisələrin dinc vasitələrlə nizamlanması; qarşılıqlı maraqlara və əməkdaşlığa yardım; ədalətə və beynəlxalq öhdəliklərə hörmət.

Bu prinsiplər 1961-ci il Belqrad Konfransının Bəyannaməsində də öz əksini tapıb. Qoşulmama Hərəkatının rəsmi tarixi həmin Konfransdan başlanır. Həmin vaxt Qoşulmama Hərəkatının üzvü olan 25 ölkənin dövlət və hökumət başçılarının iştirakı ilə qəbul edilmiş sənəddə Hərəkatın baza prinsipləri şərh edilib: beynəlxalq münasibətlərdə diktatın, hegemonluğun və ekspansiyanın qəbul edilməməsi; dövlətlər arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın zəruriliyi; ədalətə və hüquq bərabərliyinə əsaslanan yeni iqtisadi qaydanın formalaşması uğrunda mübarizə. O vaxtdan dünyada çox şey dəyişib, lakin zənnimcə, göstərilən prinsiplər bu gün də öz aktuallığını itirməyib.

## Dünyanın üçdə ikisi

Bu gün Yer kürəsi əhalisinin təqribən 55 faizi Qoşulmama Hərəkatı ölkələrində yaşayır. Dünyada neft ehtiyatlarının 75 faizindən və qaz ehtiyatlarının 50 faizindən çoxu bu dövlətlərin ərazisində yerləşir. Onların çox böyük insan ehtiyatları və təbii resursları var. Mübahisəsiz faktdır ki, bütün bu potensialdan səmərəli və ağlabatan şəkildə istifadə edilsə, o, dünyada baş verən proseslərə təsir göstərməyə qabil olan qüdrətli siyasi qüvvəyə çevrilə bilər.

Azərbaycan nisbətən yaxın vaxtda - 2011-ci ildə Qoşulmama Hərəkatına tamhüquqlu üzvü olub. Cəmi səkkiz ildən sonra həmin təşkilatın bu qədər mühüm, dünyanın yarıdan çoxunun təmsil olunacağı beynəlxalq tədbirinə ölkəmizin ev sahibliyi etməsi, şübhəsiz ki, Azərbaycanın artan beynəlxalq nüfuzunun etirafı deməkdir.

Son illərdə gedən proseslərə nəzər salsaq, prinsip etibarilə tam qətiyyətlə demək olar ki, Qoşulmama Hərəkatının üzvü olan yüzdən çox ölkənin dövlət və hökumət başçılarının görüş yeri kimi məhz Bakının seçilməsi Prezident İlham Əliyev başda olmaqla ölkə rəhbərliyinin yürütdüyü ölçülüb-biçilmiş və tarazlaşdırılmış, Azərbaycan xalqının milli maraqlarına əsaslanan xarici siyasətin, respublikanın bütün sahələrdə qazandığı sanballı uğurların məntiqi nəticəsidir.

Qoşulmama Hərəkatının Zirvə Görüşünün məhz Azərbaycanda keçirilməsini şərtləndirən amillər sırasında aşağıdakıları göstərmək olar:

-ölkəmiz bu təşkilatın prinsiplərini bütünlüklə dəstəkləyir və onlara şərikdir, onlara sadiq olduğunu nümayiş etdirir;

-rəsmi Bakı dünyanın əsas güc mərkəzlərindən bərabər məsafədə olmağı təmin edən müstəqil siyasət yürüdür, bütün ölkələrlə (Azərbaycan ərazisinin 20 faizini işğal etmiş Ermənistan istisna olmaqla) xeyirxahlığa, praqmatizmə, qarşılıqlı faydaya əsaslanan yaxşı münasibətlər saxlayır, dəfələrlə sübut edib ki, heç bir kənar qüvvə öz iradəsini Azərbaycana zorla qəbul etdirə bilməz;

-Azərbaycan Cənubi Qafqazın şəksiz iqtisadi lideridir, regionun iqtisadiyyatının 80 faizdən çoxu onun payına düşür, o, həm də regionun siyasi mərkəzidir;

-Azərbaycan beynəlxalq münasibətlərin fəal və hörmət qazanmış aktorudur. Bunu belə bir fakt da sübut edir ki, 2011-ci ildə ölkəmiz 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Ondan əvvəl postsovet respublikaları arasında yalnız Ukrayna bu şərəfə layiq görülüb. Yeri gəlmişkən, Azərbaycanın 155 ölkənin səsini toplamaqla Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində Qoşulmama Hərəkatının iştirakçıları olan ölkələrin dəstəyi də mühüm rol oynayıb.

Bu postulatın daha bir təsdiqi ondan ibarətdir ki, son üç ildə Azərbaycan mütəmadi olaraq Rusiya və NATO-nun hərbi rəhbərliyinin görüşləri keçirilən yer olur, bu görüşlərdə dünyanın təhlükəsizliyinin mühüm problemləri həll edilir. Zənnimcə, bu faktın əhəmiyyəti üzərində ətraflı dayanmağa ehtiyac yoxdur. Bəli, bu halda Azərbaycan həmin görüş üçün yalnız məkan təqdim edir, lakin əgər bizim ölkəmiz xüsusi beynəlxalq etimad qazanmış olmasaydı, heç kəs həmin görüşləri burada keçirməzdi. Dünyada 200-ə yaxın ölkə var, lakin Moskva və Brüssel məhz Azərbaycanı seçir. Zənnimcə, bu barədə düşünməyə dəyər.

-Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir, iri siyasi, mədəni-humanitar, idman tədbirlərinin təşkili və keçirilməsi sahəsində sanballı təcrübə qazanıb.

## Azərbaycanın prioritetləri

Qoşulmama Hərəkatında iştirakın Azərbaycana verdiyi xarici siyasət dividendlərindən danışmalı olsaq, Prezident İlham Əliyevin qarşıdakı Zirvə Görüşü ilə əlaqədar 2019-cu il 11 fevral tarixli Sərəncamında dəqiq ifadə edildiyi kimi, bu iştirak ölkəmizin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq proseslərinə daha fəal cəlb edilməsi, müxtəlif dövlətlərlə, o cümlədən Latın Amerikası, Asiya və Afrika ölkələrinin çoxu ilə ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı üçün əlverişli şərait yaradıb.

Azərbaycanın Qoşulmama Hərəkatına üzvlüyünün lap əvvəlindən bu təşkilat respublikamızın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını birmənalı surətdə dəstəklədiyini bildirib, qəbul edilmiş bütün sənədlərdə ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini məhz bu prinsiplər əsasında nizamlamağa çağırıb. Bu fakt cari ilin iyul ayında Qoşulmama Hərəkatı təşkilatının Nazirlər Şurasının Venesuelanın paytaxtı Karakasda keçirilmiş iclasında qəbul olunmuş yekun sənəddə də aydın şəkildə təsdiq edilib. Həmin sənəddə Azərbaycanın mövqeyini dəstəkləyən ayrıca bir bənddə qeyd edilir ki, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş müvafiq qətnamələrə baxmayaraq, Ermənistan ilə Azərbaycan arasında münaqişənin həllə də nizamlanması beynəlxalq və regional təhlükəsizliyə, sülhə təhdid mənbəyi olaraq qalır. Qoşulmama Hərəkatının nazirləri BMT Nizamnaməsində göstərilmiş güc tətbiq edilməməsi prinsipinin əhəmiyyətini bir daha təsdiq edərək münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq çərçivəsində danışıqlar vasitəsilə nizamlanması yollarını axtarmağa çağırıblar. Bu, dünyanın 120 dövlətinin, yəni, planetin təqribən üçdə iki hissəsinin mövqeyidir!

Qoşulmama Hərəkatının Bakıda keçiriləcək Zirvə Görüşü Azərbaycandan ötrü dünyanın diqqətini illər boyu davam edən münaqişəyə cəlb etmək üçün daha bir imkandır. Bu münaqişənin həllinə ölkəmizin ərazisinin 20 faizini işğal etmiş Ermənistanın qeyri-konstruktiv mövqeyi, dünyada mövcud olan ikili standartlar, təcavüzkara təsir göstərmək, onu sivil normalar çərçivəsində davranmağa məcbur etmək üçün hüquqi mexanizmlərin olmaması və ya qeyri-mükəmməlliyi mane olur.

Lakin təbii ki, Azərbaycan dünya birliyinin məsuliyyətli üzvü kimi, diqqəti təkcə öz probleminə cəlb etməyəcək, xüsusən ona görə ki, bu problemin həlli çox cəhətdən qarşıdakı illərdə və onilliklərdə dünyanın necə olacağından, hansı prinsiplərin rəhbər tutulacağından asılıdır. Bu mənada, 2019-2021-ci illərdə Qoşulmama Hərəkatında sədrlik edəcək ölkə kimi, Azərbaycanın üzərinə çox mühüm vəzifə düşür.

Bakı bu təşkilatda sədrlik dövründə öz prioritetlərini artıq müəyyən edib. Bu prioritetlər beynəlxalq münasibətlər sistemində Hərəkatın rolunun və nüfuzunun daha da artırılması, beynəlxalq səviyyədə onun baza prinsiplərinin inkişaf etdirilməsi, qanunların aliliyi, beynəlxalq hüququn normalarına və əsas Bandunq prinsiplərinə riayət edilməsi əsasında dövlətlərarası münasibətlərin formalaşmasına kömək, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verilməsi və planetdə

davamlı inkişaf məsələlərindən ibarətdir.

### Daha mükəmməl və ədalətli dünya naminə

Beynəlxalq aləmdə baş verən proseslərin məntiqi elədir ki, məhz indiki vaxtda, dünyanın çoxqütblü olduğu, geosiyasi xəritədə yenidən qarşıdurma vəziyyətində olan bloklar və koalisiyalar yarandığı şəraitdə soyuq müharibə başa çatandan sonra bir qədər zəifləmiş Qoşulmama Hərəkatının rolu yenidən artmaqdadır. Zaman etibarilə bu dövr Azərbaycanın təşkilata sədrliyi ilə eyni vaxta düşür. Formalaşmış dünya nizamı yenidən pozulur, yeni güc mərkəzləri yaranır, dövlətlər arasında münasibətlərin formatı dəyişir, köhnə ziddiyyətlər dərinləşir, ənənəvi tərəfdaşlar barrikadanın müxtəlif tərəflərində qalır, çoxillik rəqiblər isə geosiyasi və iqtisadi maraqların üst-üstə düşməsi zəminində ortaq dil tapırlar. Yeni lokal münaqişə ocaqlarının genişmiqyaslı müharibələrə çevrilməsi təhlükəsi yaranır, demokratiya bayrağı altında bir sıra ölkələrin dövlətçiliyi sarsıdılır. Bu şəraitdə Qoşulmama Hərəkatı dünya arxitekturasında tarazlaşdırıcı və çəkindirici amil kimi öz yerini tapmalıdır. Belə bir fikirlə razılaşmaq olar ki, Qoşulmama Hərəkatı bircinsli təşkilat deyil, bu Hərəkatda iqtisadi inkişafın, dövlət təsisatlarının mükəmməlliyinin, daxili sabitliyin, əhalinin sosial rifahının səviyyələri tamamilə fərqli olan ölkələr təmsil edilib, həmin ölkələrin müəyyən beynəlxalq problemlərə baxışları üst-üstə düşmür. Lakin bu da mübahisəsiz faktdır ki, Qoşulmama Hərəkatının iştirakçısı olan bütün ölkələr, əlbəttə, daha yaxşı, daha mükəmməl dünyada yaşamaq istəyirlər. Bu ölkələr elə dünyada yaşamaq istəyirlər ki, orada onlara inkişaf modellərini kənardan zorla qəbul etdirməsinlər, bu və ya digər şəraitdə özlərini necə aparmalı olduqlarını, başqa dövlətlərlə münasibətləri necə qurmağı, kiminlə dostluq etməyi və tərəfdaşlıq əlaqələri qurmağı, öz təbii sərvətləri barəsində necə sərəncam verməyi diktə etməsinlər, xoşlarına gəlməyən rejimlərin qollarını burmasınlar, orada müharibələr ucbatından ölkələrin dağılması və məhv olması təhlükəsi yoxdur, kənar müdaxilələr münaqişələrə, vətəndaş müharibələrinə, milyonlarla qaçqın ordularının yaranmasına gətirib çıxarmır. Bu ölkələr birləşərək öz siyasi iradəsini nümayiş etdirə bilər, bu iradəni planetimizi daimi sürətlə silahlanma, sərt qarşıdurma və özbaşına sanksiyalar arenasına çevirmək cəhdlərinə qarşı yönəldə bilərlər. Qoşulmama Hərəkatının keçən ilin aprelində Bakıda keçirilmiş "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda nazirlər konfransında Prezident İlham Əliyevin çıxışında vurğuladığı kimi, "Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də müəyyən dərəcədə oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik".

Bunun üçün Qoşulmama Hərəkatının fəaliyyətinin yenidən yüklənməsinə ehtiyac var. Taleyin qismətindən bu dövr Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyi ilə eyni vaxta düşür. Bu mənada həm qarşıdakı Bakı Zirvə Görüşünün, həm də Azərbaycanın sədrliyinin Qoşulmama Hərəkatı üçün dönüş dövrü kimi tarixə düşmək şansı var.

## "Joxovurd" qəzeti: "Ermənistanın daimi əhalisi daha da azalıb"



Ermənistanın daimi əhalisi son 6 ayda 3700 nəfər daha azalıb. Yəni Ermənistan vətəndaşlarının sayı artmaq yerinə, azalmaqda davam edir. Yerli "Joxovurd" qəzeti Ermənistan Dövlət Statistika komitəsinin yeni rəqəmlərini açıqlayıb. Buna görə, bu ilin iyul ayının 1-nə qədər olan vəziyyətə əsasən, ölkədə daimi status-da yaşayan vətəndaşların sayı 2 milyon 961 min 600 nəfər olub. Keçən ilə nisbətən bu göstərici 8200 nəfər azdır. Əhalinin azalması prosesi ən çox vilayət şəhər və kəndlərində müşahidə edilir. Burada Şirak vilayəti hamısından önə çıxıb. Şirakı keçən ildən bu yana 2220 vətəndaş tərk edib.

Bundan başqa, ölkədə doğum sayında da ciddi azalma var. Əgər bu ilin birinci yarısına qədər Ermənistanda 16111 uşaq doğulmuşsa, keçən il bu rəqəm 16261, 2017-ci ilin 1 iyulunda isə 17171 nəfər təşkil edib. Doğumdan fərqli olaraq ölənlərin sayı artıb. 2018-ci ilə nisbətən bu il Ermənistanda 572 nəfər artıq adam o dünyaya köçüb.

## Tayvanlı professor: Azərbaycan "IOI-2019"u yüksək səviyyədə təşkil edib



Azərbaycan hökuməti Bakıda ilk dəfə keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadasını ("IOI-2019") çox yüksək səviyyədə təşkil edib. Bakıya gəldiyimiz ilk gündən bəri insanlar bizi qonaqpərvərlik və mehriban münasibətlə qarşılayıblar. Bu sözləri AZƏRTAC-a müsahibəsində Beynəlxalq İnformatika Olimpiadasının prezidenti, Tayvan Milli Normal Universitetinin professoru Qreq Li deyib.

O, informatika elmlərinin təbliği və bu sahədə istedadlı gənclərin üzə çıxarılması baxımından olimpiadanın unikal platforma olduğunu bildirib. Beynəlxalq İnformatika Olimpiadasının əsas məqsədinin informatikanı daha da inkişaf etdirmək olduğunu deyən Qreq Li dünyanın müxtəlif ölkələrindən ən istedadlı və savadlı şagirdləri bir araya toplayan müsabiqələrin əhəmiyyətindən danışıb.

Qreq Li Bakı Olimpiadasında 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyətlərinin iştirak etdiyini və informatika sahəsinə olan marağın daha da artığını qeyd edib. "Bu olimpiada gənclərin özləri kimi düşünən insanlarla görüşməsi və ünsiyyət qurması, alqoritmlər haqqında fikirlərini bölüşməsi və problemlərin həlli yollarını birgə axtarması üçün gözəl bir imkandır. Burada onlar, həmçinin yeni dostlar qazana bilirlər", - deyə o əlavə edib.

## Qubalı sahibkar: "Dövlətin dəstəyini hiss etdikcə hədəflərimiz daha da böyüyür"

İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirəni diqqətlə izlədim. Müşavirədə Prezident İlham Əliyev əldə olunan uğurlardan danışdı. Kənd təsərrüfatındakı canlanma, bu sahədəki rekord göstəricilər biz sahibkarların görmək istədiyi nəticədir. Bu işdə hər birimizin az da olsa payı var. Biz toxumçuluq təsərrüfatı və meyvəçiliklə məşğuluq. 150 hektar sahədə keyfiyyətli toxum istehsal edirik. Ölkəmizdə kənd təsərrüfatının inkişafına geniş dövlət dəstəyi mövcuddur. Aqrar sahənin inkişafında toxumçuluq mühüm rol oynayır. Quba rayonunda da toxumçuluq üzrə ixtisaslaşmış təsərrüfatlar çoxluq təşkil edir. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı konkret hədəflər qoyulub. Bu hədəflərə çatmaq üçün hamımız səylə çalışmalıyıq. Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Quba rayonunun İkinci Nügədi kəndindən olan sahibkar Adəm Əhmədov söyləyib.



Adəm Əhmədov bildirib ki, Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində iqtisadiyyatın digər sahələrində olduğu kimi, aqrar sahə də keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. "Toxumçuluqla yanaşı, bizim 270 hektar meyvə bağımız da var. Burada alma, gavalı, alça və başqa meyvələr yetişdiririk. Qubada fermerlər alma bağlarından əlini üzmüşdü. Satışda, texnika ilə təminatda problemlər vardı. Artıq bu çətinliklər arxada qalıb. Yeni texnologiya və metodlardan istifadə etməklə yüksək məhsuldarlığa nail olmuşuq. Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçmişik. Bu, işimizi daha da asanlaşdırıb. Arxamızda dövlətin dəstəyini hiss etdikcə hədəflərimiz daha da böyüyür", - deyə sahibkar bildirib.

## Ermənistanda keçmiş deputata sui-qəsd təşkil olunub



Ermənistanın Tavuş vilayətində vəziyyət gərgin olaraq qalır. Bir qrup narazı sakin həbs olunan yaxınlarının azadlığa buraxılmasını tələb edir. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, işğalçı ölkədə siyasi təqiblər davam edir. Vilayət sakinlərinin iddialarına görə, sərhəd kəndlərində işsizlik problemi insanların sosial vəziyyətini ağırlaşdırır. Bu səbəbdən kəndlərdə gənclər qalmayıb. Hər kəs ölkəni tərk edir. Bundan başqa, Tavuş vilayətində və kəndlərdə qaz problemi mövcuddur. Dövlət qurumlarına edilən şikayətlərin nəticə vermədiyini deyən sakinlər, onlara meşələrə girməyə qadağalar qoyulduğunu bildirirlər.

Bundan başqa, Yerevan-Sevan magistral yolu üzərində körpü partladılıb. Ərazidəki avtomobillərə ziyan dəyib. İki nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb. Aparılan istintaq zamanı məlum olub ki, xəsarət alanlar Ermənistanın nüfuzlu oliqarxlarıdır. Onlardan biri keçmiş deputat Melik Manukiyandır. Polisin keçirdiyi əməliyyat nəticəsində hadisə yerindən 170 metr aralıda yerləşən restorandan partlayıcını uzaqdan idarə edən qurğu aşkarlanaraq götürülüb. Erməni mətbuatı yazır ki, bu Melik Manukiyana qarşı olan siyasi təzyiqin davamıdır. Sabiq deputatın vəkili bildirib ki, bu yaxınlarda M.Manukiyananın qardaşı heç bir səbəb olmadan Yerevandakı polis bölməsinə aparılaraq işgəncələrə məruz qalıb.

Ermənistanda etirazların ardı-arası kəsilmir. Aksiya iştirakçıları mer Hayk Marutyana xəbərdarlıq edərək ona sarı vərəqə göstəriblər. Bildirilir ki, 1 il əvvəl şəhər rəhbərliyinə gətirilən Marutyanın yarıtmaz fəaliyyəti onları qane etmir. Aksiya iştirakçısı deyib: "Ay yarımdan çoxdur ki, tullantılar daşınmır. Ərazidə üfunət qoxusundan durmaq mümkün deyil. Antisanitariya baş alıb gedir. Sakinlər isti havada siçovulların qorxusundan pəncərələrini, qapılarını aça bilmirlər. Mer ya verdiyi sözlərə əməl etsin, ya da ki, istefa versin. Sakinləri hansısa özəl təmizlik şirkəti ilə meriya arasında fikir ayrılıqlarının yaranması maraqlandırmır".

# Azərbaycanda azad və demokratik mətbuat formalaşıb

## *Ulu Öndər Heydər Əliyevin Azərbaycan mətbuatı üzərindən dövlət senzurasının ləvğ edilməsi ilə bağlı imzaladığı Fərmandan 21 il ötür*

***Hərtərəfli inkişaf edən Azərbaycan regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq, beynəlxalq münasibətlər sistemində layiqli yerini tutub. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməyib, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırıb, rəqabət qabiliyyətini yüksəldib. Dünyada informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirir, Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutur. Qloballaşma dövründə cəmiyyətin inkişafına ciddi təsir göstərən, dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilən kütləvi informasiya vasitələri ictimai fikrin formalaşdırılmasında mühüm rol oynayır.***

Azərbaycan mətbuatı mürəkkəb, lakin şərəfli inkişaf yolu keçərək bütün zamanlarda xalqımızın şanlı tarixinin güzgüsü olub və bu gün də belədir. Bu ənənə yeni çalarla yaşayır və davam etdirilir. Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlər daha geniş şəkildə bərqərar olub, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqları möhkəmlənib və Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atıb. Ölkəmizdə söz və mətbuat azadlığının təmin olunması istiqamətində dövlətimiz tərəfindən ciddi addımlar atılır, bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilir.

Təbii ki, Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində gerçəkləşdi. Ulu Öndərin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın tarixinin mühüm faktlarıdır. 1995-ci ildə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında ölkə vətəndaşlarının təhlükəsiz yaşamaq, söz, fikir və vicdan azadlığı təsbit edildi. Bir il sonra 1996-cı il noyabrın 15-də "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra Nazirlər Kabineti yanında Dövlət Sirlərini Mühafizə edən Baş İdarənin ("Qlavlit") iş metodlarında müsbətə doğru ciddi dəyişikliklər edildi. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən "İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı" isə vətəndaşların konstitusiyada əksini tapmış söz, mətbuat və fikir azadlıqlarının təminatına əlverişli imkanlar açdı. Ulu Öndərin 1998-ci il 6 avqust tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilmiş, bununla da, mətbuata tətbiq edilən senzura aradan qaldırılmış, milli mətbuatın inkişafı yolunda yeni perspektivlər açılmışdır. Həmin Fərmanla Azərbaycanda milli mətbuatın demokratik inkişafına dövlət qayğısı modeli təqdim edilmişdir. Ümummilli Lider Azərbaycana rəhbərlik dövründə, nəinki senzuranı ləğv etmiş, həm də azad mətbuatın qarantı olmuş, milli mətbuatımızın peşəkarlığının artırılmasına təkan vermişdir. Senzuranın ləğvindən sonra kütləvi informasiya vasitələri üzərindən əlavə dəyər vergisi götürülmüş, ölkəyə gətirilən qəzet kağızına tətbiq olunan gömrük rüsumu tamamilə azaldılmışdır. Bu Fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti çıxışlarının birində "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir" deyərək söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulmasının Azərbaycanda çox vacib olan məsələlər olduğunu qeyd edib: "Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir". Müasir dövrümüzdə cöz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsü rolunu oynayır.



Dövlət başçısı İlham Əliyevin səyi ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə və jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan maliyyə vəsaitlərinin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Belə ki, 2010-cu ildə ölkə jurnalistlərinin sosial müdafiəsinin möhkəmləndirilməsi, mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış binasının tikilməsi məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna, ilkin olaraq, 5 milyon manat vəsait ayrıldı. Həmin vəsait hesabına jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olunaraq, media nümayəndələrinə verildi. Daha sonra bu qayğı və diqqətin nümunəsi olaraq, dövlət tərəfindən ikinci bina tikilərək, 255 jurnalistə mənzillər verildi. Azərbaycan dünyada bəlkə də yeganə ölkədir ki, kütləvi informasiya vasitələri nümayəndələri üçün dövlət tərəfindən pulsuz olaraq yaşayış binaları inşa olunur və onlara verilir. Bu, bir daha sübut edir ki, ölkəmizdə KİV nümayəndələrinin yüksək səviyyədə fəaliyyət göstərmələri, azad mətbuatın təmin edilməsi ilə yanaşı, dövlətimiz jurnalistlərin mənzil-məişət məsələlərinin həllinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır. Ölkəmizdə jurnalistlərin məişət problemlərinin həlli üçün bundan sonra da addımlar atılacaq.

Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır və bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirilir.

Göründüyü kimi, Azərbaycan dövləti azad söz, azad mətbuat problemlərini, tam mənada, həll etməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə zəruri addımlar atılır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən, bütün sahələrdə olduğu kimi, milli mətbuat da diqqətdə saxlanılır və ona həssaslıqla yanaşılır. Bütün bunlar Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist peşəsinə və əməyinə verdiyi yüksək qiymətin göstəriciləridir.

Təbii ki, respublikamızın tarixi inkişafında əldə olunmuş yüksək nailiyyətlər milli mediamız qarşısında da yeni vəzifələr qoyur. Bu gün belə diqqət və qayğı ilə əhatə olunan Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub-saxlanması və təbliğində mühüm rol oynamalıdır. Azərbaycan jurnalistikası obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidir. Hər bir mətbuat işçisi istənilən vəziyyətdə məsuliyyət hissini unutmamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladğı kimi, bu gün ölkəmizin artan imkanları kütləvi informasiya vasitələrinin, o cümlədən, milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır: "Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır".

Bu gün müharibə şəraitində yaşayan, ərazisinin 20 faizinin hələ də işğal altında olan bir dövlətdə mətbuat işçiləri daha böyük məsuliyyətlə çalışmalıdırlar. Müasir dövrdə ölkə mediasının üzərinə mühüm vəzifələr düşür. İlk növbədə, mətbuatda peşəkarlıq əsas normalardan birinə çevrilməli, KİV-də milli maraqların qorunması hər bir jurnalist üçün vacib mənəvi məsələ olmalıdır. Yeni mərhələnin siyasi reallıqları mətbuatın cəmiyyətdə təkcə rolunu deyil, həm də sosial öhdəliklərini, məsuliyyətini artırır. Ölkənin taleyüklü məsələlərinə münasibətdə mətbuat nümayəndələrindən əsl vətəndaş mövqeyi, milli təəssübkeşlik nümunəsi tələb edir. Bu qədər dövlət qayğısı ilə əhatə olunan mətbuatımız zamanın meyarlarını və tələblərini hər zaman diqqətdə saxlamalıdır.

***ZÜMRÜD BAYRAMOVA***

# Ahıllar üçün günərzi xidmət mərkəzləri yaradılır

## *Mərkəzlərdə tənha ahıllar sosial-məişət xidmətləri ilə təmin olunacaqlar*



***Bu gün ölkəmizdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən sosial siyasət nəticəsində ahıl insanlara qayğı və diqqət daha da artıb, onların maddi və mənəvi tələbatları ödənilib, sosial müdafiəsi daha da gücləndirilib. Dövlət tərəfindən sosial təminat sahəsinə aid qanunların, fərman və sərəncamların qəbulu zamanı ahılların maraqları və sosial statusu nəzərə alınıb.***

Belə ki, "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilib. Həmin islahatlar ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan verib.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan 2008-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "2009-2015-ci illərdə sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nın uğurla icrası ilə sığorta-pensiya sisteminin davamlı inkişafına nail olunub. Ölkəmizdə tətbiq olunan yeni sığorta-pensiya sistemində pensiyaların artırılması, bazar iqtisadiyyatının tələblərinə uyğun tərzdə dəyişdirilməsi mövcud maliyyə imkanlarının bütün pensiyaçılar arasında ədalətli surətdə bölgüsünə imkan verib.

Ötən illər ərzində, Azərbaycan Prezidenti İlham Əliyev yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması, sığorta hissəsinin artırılması və s. bağlı sərəncamlar imzalayıb. Bu gün tənha, ahıl vətəndaşlara ictimai əsaslarla evlərində sosial xidmətlər göstərilir. Ölkəmizin bir çox yerlərində Bakıda, Gəncədə və başqa yerlərdə belə evlər vardır. Dövlət başçısının, bu təbəqədən olan insanlara diqqət və qayğısının ifadəsi kimi, Bilgəhdə müharibə və əmək əlilləri üçün pansionatın (Qocalar Evi) beşmərtəbəli, 170 yerlik ikinci korpusu inşa olunaraq, istifadəyə verildiyni də vurğulamaq yerinə düşər. Burada beynəlxalq təcrübədən irəli gələn meyarlara uyğun olaraq, tənha ahıl və əlillərin keyfiyyətli tibbi-sosial xidmətlə təmin edilməsi, asudə vaxtlarının mənalı təşkili üçün müasir tələblərə uyğun şərait yaradılıb. Bu tədbirlər dövlət səviyyəsində həyata keçirilir. Azərbaycan nadir ölkələrdəndir ki, bu sahədə çox ciddi praktiki addımlar atılır. Dövlət qarşısında xüsusi xidmətləri olmuş ahılların bir qismi əmək pensiyaları ilə yanaşı, Azərbaycan Prezidentinin təqaüdü ilə də təmin olunurlar. Ahıl şəxslərin dövlət hesabına bərpa-müalicə xidməti, reabilitasiya avadanlıqları, sanatoriya-kurort yollayışları ilə təminatı sahəsində də işlər ilbəil gücləndirilir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 1 iyun 2019-cu il tarixli Sərəncamı, sosial xidmətlər sistemində yeni bir istiqamət kimi, ahıllar üçün də günərzi xidmətlərin təşkilinə şərait yaradıb.

Sərəncamın icrası işləri çərçivəsində sosial xidmət sifarişləri əsasında, ilk mərhələdə, 10 şəhər və rayonda ahıllar üçün günərzi xidmət mərkəzlərinin yaradılması nəzərdə tutulub. Mərkəzlərin 4-ü Bakı şəhərində, 6-sı Sumqayıt, Gəncə, Mingəçevir, Abşeron, Xaçmaz, Lənkəran şəhər və rayonlarında yaradılacaq. Bu mərkəzlərdə tənha ahıllar yarımstasionar şəkildə, yəni günərzi formasında sosial-məişət xidmətləri ilə təmin olunacaq, onların asudə vaxtlarının mənalı təşkili və s. istiqamətlərdə işlər aparılacaq.

Qeyd edək ki, hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsi fəaliyyət göstərir. Burada özünəqulluq qabiliyyəti, habelə, onlara qulluq və köməklik göstərə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan pensiya yaşına çatmış şəxslər, daimi dövlət təminatında yaşamaqla, stasionar şəraitdə sosial xidmətlərlə təmin edilirlər.

Bütün görülən işlər, həyata keçirilən tədbirlər Azərbaycan dövlətinin artan qüdrətinin və onun hər bir vətəndaşına olan qayğısının göstəricisidir.

***Zümrüd BAYRAMOVA***

# Mərakeş portalı Azərbaycanın multikulturalizm ənənələrindən yazır

Mərakeşin "Aldar" xəbər portalında "Azərbaycanın multikulturalizm və dini tolerantlıq modeli - dünya gənclərinin diqqət mərkəzində" başlıqlı məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, yazıda IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsi çərçivəsində Azərbaycanın paytaxtı Bakı şəhərində təşkil olunmuş "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" adlı I Beynəlxalq Gənclər Forumuna dünyanın müxtəlif ölkələrindən olan gənclərin qatıldığı bildirilir.



أذربيجان تبسط نموذجها في التعددية الثقافية والدينية أمام شباب العالم

منذ 6 أيام

أذربيجان/ المحجوب داسع

في حدث ثقافي، جميع مئات الشباب من مختلف بقاع العالم، احتضنت مدينة باكو، عاصمة جمهورية أذربيجان، فعاليات المؤتمر الدولي للتعددية الثقافية، الذي ناقش هذه السنة موضوع " سبل تعزيز الحوار بين الأديان والثقافات"، والذي نظمت على هامشه الجامعة الصيفية للتعددية الثقافية، بإشراف من رئاسة الجمهورية، والمركز الدولي للتعددية الثقافية، الذي سهر على تنظيم محكم لهذا المنتدى.

هذا الحدث العالمي، الذي حظي بتغطية إعلامية كبيرة، سهر على تنظيمه المحكم منظمة "توحيد الكلمة بين الشباب في العالم"، و "مركز باكو الدولي للتعددية الثقافية"، الذي سخر جميع امكانياته المالية واللوجيستيكية لضمان نجاح هذا الحدث العالمي، باشرف مباشر من رئيس الجمهورية، الهام علييف.

وعقد خلال هذا المنتدى جلسات عامة تطرقت لسبل تعزيز الحوار بين أتباع الديانات والثقافات، وكذا ورشات في مجال بناء قدرات القيادات الشابة لتعزيز التعددية الثقافية والدينية.

Qeyd edilir ki, Forum çərçivəsində dinlər və mədəniyyətlər arasında dialoqun gücləndirilməsi yolları müzakirə edilib, multikulturalizmin möhkəmləndirilməsi üçün gənc liderlərin hazırlanması sahəsində seminarlar təşkil edilib.

"Multikulturalizm siyasəti və multikulturalizmin Azərbaycan modeli" mövzusunda keçirilən ilk sessiyanın moderatoru İrina Kunina qeyd edib ki, multikulturalizmin müasir dövrdə öz xüsusiyyətlərinə görə bir-birindən fərqlənən bir sıra modelləri var. Multikulturalizmin müxtəlif modelləri arasında bəzi fərqlərin olmasına baxmayaraq, multikultural cəmiyyətin formalaşmasında və multikultural mühitin dəstəklənməsində aparıcı rol dövlətə məxsusdur.

Moderator multikulturalizmin Azərbaycanda həyat tərzinə çevrildiyini, ölkədə ayrı-ayrı millətlərin nümayəndələrinin sülh şəraitində yaşadıqlarını vurğulayıb.

Yazıda Azərbaycanın multikulturalizm modelindən bəhs edilir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Layihələr şöbəsinin müdiri Abbas İsmayılov sessiyadakı çıxışına istinad olunaraq bildirilir ki, Azərbaycanın multikulturalizm modelinin məqsədi dünyada dinlər, xalqlar və millətlər arasında birgəyaşayışın harmoniyasını yaratmaqdır. Hazırda bu model dünyaya bir nümunə kimi göstərilir və eyni zamanda, öyrənilir. Azərbaycanın dövlət siyasətinə çevrilən multikulturalizm siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir.

Müstəqil Azərbaycan Respublikasında millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüququn normalarına və zəngin tarixi köklərə əsaslanır və bu səbəbdən də dünya ictimaiyyətinin diqqətini cəlb edir.

Abbas İsmayılov dövlətimizin başçısının müvafiq Fərmanı ilə yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin gördüyü işlər, həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib. A.İsmayılov qeyd edib ki, multikulturalizm və tolerantlığın qorunub inkişaf etdirilməsi istiqamətində görülən işlər dövlət-din münasibətlərinin, eyni zamanda, millətlərarası və dinlərarası münasibətlərin tənzimlənməsinə xidmət edir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov tədbirdəki çıxışına Forumun əhəmiyyəti və Yay məktəbi, ölkədəki tolerantlıq və birgəyaşayış ənənələri, multikulturalizm mühiti barədə məlumat verib. Qeyd edilir ki, Beynəlxalq Multikulturalizm Məktəbinin Bakı şəhəri ilə yanaşı Şəki, Oğuz və Qəbələ rayonlarını da əhatə edib. İştirakçılar yerli əhali, dini icmalar və din xadimləri ilə görüşüb, tarixi abidələrlə tanış olublar.

# Tümen vilayətinin biznes missiyası Azərbaycana səfər edəcək

Rusiyanın Tümen vilayətinin İxraca Dəstək Mərkəzinin biznes missiyası avqustun 11-16-da Azərbaycanda səfərdə olacaq. AZƏRTAC Rusiya mətbuatına istinadla xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti B2B görüşləri keçirəcək, potensial tərəfdaşlarla danışıqlar aparacaq, Bakıdakı fərdi idxalçı müəssisələrə baş çəkəcək. Eyni zamanda, İxraca Dəstək Mərkəzinin təşəbbüsü ilə sınaq mal tədarükünə dair sazişlərin imzalanması nəzərdə tutulur.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 6-da Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Oqnyen Joviç aparıblar.



# Atasının 47 min dollarını oğurlayan oğul saxlanılıb

Qubada öz yaşadığı evdən oğurluq edən gənc saxlanılıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Quba regional qrupundan SİA-ya verilən məlumata görə, Qubanın Vladimirovka kənd sakini Kərim Əlişanov Rayon Polis Şöbəsinə (RPŞ) müraciət edərək, ona məxsus fərdi yaşayış evindən 47 min ABŞ dollarının naməlum şəraitdə oğurlandığı barədə məlumat verib.

Məlumatla əlaqədar RPŞ-də dərhal əməliyyat qrupu yaradılıb və hadisə yerinə baxış keçirilib. Peşəkarlıqla aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində pulların zərərçəkənin oğlu, 18 yaşlı Röyal Əlişanov tərəfindən oğurlandığı məlum olub. İlkin dindirilmə zamanı R.Əlişanov tutduğu əməli etiraf edərək, müxtəlif vaxtlarda atasına məxsus pulları hissə-hissə oğurladığını bildirib. Faktla bağlı Quba RPŞ-də araşdırmalar aparılır.

***Son zamanlar Ermənistanda baş nazir Nikol Paşinyana qarşı etiraz çıxışlarının artması, keçmiş prezident Robert Koçaryanın Paşinyan hökumətini "bacarıqsız və populist" adlandırması, bu ölkədə yeni seçkilərin taleyinin küçələrdə həll olunacağını, habelə, payızda yeni hadisələrin baş verəcəyini vurğulaması baş nazirin kürkünə birə salıb. Ən əsas məqam isə, Koçaryan, Sarkisyan və onların dəstəklədikləri başqa bu kimi erməni liderləri Paşinyanın Qarabağda öz istədiyini qura bilməməsinə çalışmalarıdır. Ona qarşı bu təzyiqləri ört-basdır etmək üçün avqustun 5-də işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfər edən Ermənistanın baş naziri Nikol Paşinyan Xankəndidə Ermənistan və Qarabağ "xalqlarının" birləşmək adı ilə Qarabağda "ümumerməni oyunları" adlı növbəti şounun açılışını edib. Hədəf, əlbəttə ki, separatçı rejimin təbliği və bu ərazilərin köklü sahibinin guya ermənilər olduğunu dünyaya nümayiş etdirməkdir. Bu məqsədlə dünyanın dörd bir yanından ermənilər və ermənipərəst qonaqlar dəvət edilib. Məlumatlara görə, Türkiyə, Gürcüstan və İran öz erməni əsilli vətəndaşlarına bu şouya qatılmaq üçün Qarabağa getmələrini yasaq edib.***



# Təxribatçı mitinqdən çıxarılan nəticələr...

## *Paşinyanın növbəti çağırışları burnundan uzağı görməməsi deməkdir*

### Paşinyanın növbəti təxribatı

"Ümumerməni oyunları", şübhəsiz ki, ondan əvvəlki analoji tədbirlər və idman "çempionatları" kimi, Azərbaycan dövlətinə qarşı düşünülmüş açıq təxribatdır. Daha dəqiq desək, erməni tərəfinin sülh danışıqlarına vurduqları daha bir zərbədir. Bir sözlə, rəsmi İrəvanın Bakı ilə böyük sülh sazişində maraqlı olmadığının daha bir təzahürüdür. Məhz bu səbəbdən də, Nikol Paşinyanın avqustun 6-da işğal altında olan əzəli Azərbaycan torpaqları Dağlıq Qarabağda "ümumerməni yay oyunlarının keçirilməsi" ideyası Ermənistan rəhbərliyi tərəfindən növbəti təxribatdır. Xüsusilə, son illərdə Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunan 2012-ci il "Avroviziya" Mahnı Müsabiqəsi, "Formula-1" Bakı Qran Pirisi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, bu yaxınlarda 48 ölkəni təmsil edən 3900-dən çox idmançı və texniki heyətin iştirakı ilə Bakıda keçirilən XV Avropa Gənclər Yay Olimpiya Festivalının keçirilməsi Azərbaycanın durmadan artan gücündən və beynəlxalq nüfuzundan xəbər verir. Məhz bu uğurların qarşısında Ermənistanın küçə, quldur "demokratı" Nikol Paşinyanın gücü ancaq müxtəlif təxribatlar törətməklə, işğalçılıq siysətinin ömrünü uzatmaqdır. Bunun üçün isə, hər cür vasitələrə əl atırlar. İnformasiya vasitələrinin verdiyi məlumatlara görə, Ermənistana qonşu olan Türkiyə, İran və Gürcüstan idmançıları bu oyunlarda iştirak etməyəcək. Bu isə, Azərbaycanın həm regionda, həm də dünyada yüksək nüfuza sahib olduğundan xəbər verir. Bu ölkə idmançılarının oyunlarda iştirakdan imtina etməsi Ermənistan rəhbərliyinin, onsuz da, aşağı olan nüfuzuna yeni bir zərbədir.

Eyni zamanda, nüfuzdan düşən Paşinyan bu səfər zamanı çalışır ki, gələn il qondarma rejimdə keçiriləcək "seçkilərdə" öz namizədinin qələbəsini təmin etsin. Ekspertlərin sözlərinə görə, Paşinyanın çıxışı yerli qondarma separatçı qurumun elektoratına ünvanlanıb. Əlbəttə ki, bu, acınacaqlı haldır. Çünki Paşinyanın Azərbaycanın işğal olunmuş torpaqlarına səfər etməsi təxribatçı xarakter daşıyır. Bu, bir daha onu göstərir ki, Ermənistan həmin ərazilərdə hökmranlıq edir və oranı boşaltmaq niyyətində deyil. Eyni zamanda, Paşinyanın Azərbaycanla danışıqlar aparmaqdan boyun qaçırdığını da sübut edir. Təəssüf doğuran isə odur ki, bu cür səfərlər xarici müşahidəçilər, ATƏT-in Minsk Qrupu tərəfindən lazımi siyasi qiymət almır. Siyasi qiymət almadığı üçün də belə səfərlər və siyasi oyunlar sürətlə davam etdirilir.

### Robert Koçaryan və Serj Sarkisyan hərbi xuntaya aid generalitet Paşinyan hökumətini saymır

Ümumiyyətlə, həmişə sərsəm çıxışları və hərəkətləri ilə avsayda qalan Nikol işğal altında olan Azərbaycanın əzəli torpaqlarına qanunsuz səfər etməklə, bir daha xarici siyasətdən xəbərsiz olduğunu və işğalçılıq siyasətindən əl çəkmədiyini sübut edir. Politoloq Natiq Miri hesab edir ki, Nikol Paşinyan iqtidarı təmas xəttində hərbi proseslərə nəzarət edə bilmir: "Bundan əlavə, işğal olunmuş Azərbaycan ərazilərində Robert Koçaryan və Serj Sarkisyanın qurub-yaratdığı və rəhbərlik etdiyi hərbi xuntaya aid generalitet Paşinyan hökumətini saymır. Bu generalitet Paşinyan hökumətini devirmək üçün hərbi təxribatlar törətməklə yeni müharibəyə rəvac verə və nəticədə, Ermənistan ordusu Azərbaycan Ordusundan ciddi zərbə ala bilər. Bu zərbə təkcə canlı qüvvə və hərbi texnika itkisi ilə deyil, həm də çox ciddi strateji ərazilərin azad olunması ilə də nəticələnə bilər".

Politoloq əlavə edib ki, Ermənistan ictimai rəyində hələ də Qarabağ münaqişəsinin həlli ilə bağlı hansısa dəyişiklik mövcud deyil: "Erməni ictimai rəyi hələ də Azərbaycanın işğal olunmuş ərazilərinin geri qaytarılmasına heç bir vəchlə razılıq vermir. Ona görə də, əgər Koçaryan-Sarkisyan rejiminə xidmət edən hərbi xunta Azərbaycanın işğal olunmuş ərazilərində bu cür hərbi təxribatlar yaradarsa, - düşünürəm ki, son hərbi insidentlərin də arxasında bu istək və niyyətlər dayanır, - bu, Paşinyan üçün, həqiqətən də, çox xoşagəlməz durum yarada bilər".

Politoloq onu da bildirir ki, Paşinyan hakimiyyətə gəldiyi gündən erməni xalqını aldadır: "O, bu müddətdə ayılıq maaşların 7 dəfə artacağını, 2050-ci ildə Ermənistanın futbol üzrə dünya çempionu (!!!) olacağını, Ermənistan əhalisinin sayının 5 milyona çadıracaqlarını (son 6 ayda Ermənistanın daimi əhalisinin sayı 3,5 min nəfər azalıb - red.), 1,5 milyon yeni iş yerləri açacaqlarını və s. vədlər verib. Baş nazirin bu çıxışından, belə çıxır ki, Paşinyan 2050-ci ilədək hakimiyyətdə qalmaq istəyir. Ona görə bu müddətədək hakimiyyətdə qalmağı arzulamaq belə gülüncdür. Çıxışında "Qarabağın Ermənistan olduğunu", "Qarabağın Ermənstana birləşəcəyi" kimi xülyanı dünya ermənilərinə danışması Paşinyanın populist və avantürist olaraq qaldığını göstərir. Bu vədləri qüvvə və maliyyə vəsaiti ilə? Bunu deməyib. Ümumiyyətlə, Paşinyanın çıxışlarında çox böyük vədlər verilir. Bu öhdəliklərin yerinə yetirilməsi üçün istifadə edəcəyi maliyyə vəsaitindən danışmır. O zaman belə bir sual doğur: bu vədləri yerinə yetirmək üçün Ermənistanın hansı resursları var? Son bir ildə ölkəyə turzim axını yox dərəcəsindədir. Bir sıra dövlətlər vətəndaşlarına Ermənistana səyahətin riskli olduğu barədə xəbərdarlıq edirlər".

### Azərbaycan dövlətinin qətiyyətli mövqeyi təcrid olunmuş Ermənistanı təşvişə salıb

Ermənistan baş naziri N.Paşinyanın çıxışına dair Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Ermənistan baş nazirinin Azərbaycan işğal olunmuş ərazilərinə qanunsuz səfər edərək, Xankəndi şəhərində "Qarabağ - Ermənistandır" deyə açıqlamasını qəti şəkildə rədd edirik.

H.Hacıyev qeyd edib: "Dağlıq Qarabağ - Azərbaycandır! Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissədir. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir. Azərbaycan dövləti və xalqı heç vaxt Ermənistanın törətdiyi hərbi işğal və qanlı etnik təmizləmə vasitəsilə əldə olunmuş kəmizin ərazi bütövlüyünün pozulmasına və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə imkan verməyəcəkdir.

Ermənistanın baş naziri N.Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması, Ermənistanla qondarma rejimin birləşdirilməsinə çağırış etilə, o, diaspor və xarici qüvvələr arasında itməkdə və azalmaqda olan nüfuzunu gücləndirməyə, artırmağa çalışır. Xankəndidə çıxışı ilə dünya ermənilərini, beynəlxalq ictimaiyyəti inandırmaq istəyib ki, Ermənistanın və Qarabağın problemlərini həll etməyə qadirdir. Gülməli və gülünc müddəa... Hansı məsi Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunun növbəti açıq ifşasıdır. Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırmaq beynəlxalq ictimaiyyətə, xüsusilə, münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk Qrupunun həmsədrlərinə hörmətsizlik və məsuliyyətsizlik kimi qiymətləndirilməlidir. Bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk Qrupunun həmsədrləri cavab verməlidir".

H.Hacıyev, onu da bildirib ki, bu açıqlama ilə Ermənistan baş naziri, həmçinin, öz-özünü inkar edir və bir müddət əvvəl, Dağlıq Qarabağ adından guya danışa bilməməsi haqqında bəyanatının cəfəngiyyat və yalandan başqa bir şey olmadığını etiraf edir: "Bununla, Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmamışdır.

Ermənistan rəhbərliyini, əmin etmək istərdik ki, Ermənistanın 2050-ci ildə inkişafına dair səslən dirilən məqsədlər utopiya olduğu kimi, Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistana birləşdirilməsi cəhdi də fantaziyadan başqa bir şey deyildir.

Ermənistan tərəfi bu təxribatçı və destruktiv açıqlama ilə regionu yeni təhlükə və risklərlə üzbəüz qoyur və ölkədaxili problemlərdən yayınmaq üçün qəsdən vəziyyəti gərginləşdirir.

Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür.

Heç kimin şübhəsi olmasın ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini, etnik təmizləməyə qalmış vətəndaşlarının öz doğma torpaqlarına geri qayıtmasını və beynəlxalq hüququn aliliyini təmin edəcəkdir".

Beləliklə, bir daha Paşinyan anlamalıdır ki, işğal faktına son qoyulmayana qədər Azərbaycan Ermənistanın dövlət olaraq çöküşünü davam etdirəcək.

**A.SƏMƏDOVA**

# Müxalifətdaxili çəkişmələr, “agent” axtarışı, bir-birinə qısqanclıq...

### Dava yenə də qrant davasıdır

İllərdir dağıdıcı müxalifət düşərgəsində baş verən qarşıdurmaların, çəkişmələrin, bir-birinə qısqanclığın müqabilində “agent” axtarışına çıxmağın yenidən başlaması təəccüblü deyil. Söhbət xalqın gözündən birdəfəlik düşmüş və gələcəyini yalnız antimilli fəaliyyətdə görən dağıdıcı müxalifət təmsilçilərinin xarici qrant üstündə bir-birlərini qırmasından gedir. 25 ildir ki, asan qazanc üstündə müxalifətdaxili və antimilli QHT-lər arasında mübarizə gedib və bu sahədə də mafiyalaşma yaranıb.



### Əli Kərimli anti-Azərbaycan qüvvələrin “əyləc mexanizmi”nə çevrilib

Azərbaycan hakimiyyətinin dövlətimizi dünyada baş verən qlobal maliyyə-iqtisadi böhrandan az itkilərlə çıxarması, dinamik inkişafını yenidən təmin etməsi və xalqın maraqlarını müdafiə edərək, onun sosial rifah halını daha da yüksəltməsi anti-Azərbaycan dairələrini çox narahat edir. Ona görə də, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, inkişaf proseslərinin qarşısını almaq üçün “beşinci kolon”dan istifadə edirlər.

Sözügedən prosesdə ictimai rəyi mənfi tonda yükləmək və ölkəmizin əldə etdiyi nailiyyətləri, uğurları ləkələmək, xalqımızın firavan və sakit yaşayışına mane olmaq üçün anti-Azərbaycan qüvvələri Ə.Kərimlini ölkəmizin inkişafına qarşı “əyləc mexanizmi” kimi istifadə edirlər. Ə.Kərimli Avropada və ABŞ-da qrantlar hesabına maliyyələşdirilən S.Osmanqızı, Q.Zahid kimi antimilli ünsürlərin internet kanallarında ona verilmiş tezislər əsasında çıxışlar edir, müəyyən məbləğlər qarşılığında trolların antimilli fəaliyyətini təşkil edir, erməni mətbuatı və lobbisi ilə sinxron işlər görülür, əsassız və qondarma iddialar üzrə mitinqlərə çağırışlar edilir. Əlbəttə ki, Ə.Kərimlinin bu çağırışları hər zaman xalqımız tərəfindən rədd edilir və ona dəstək verilmir. Elə, bu səbəbdən də, insanlar dövlətçiliyimizin düşməni olan radikal müxalifəti ciddi şəkildə qınamalı və onlara yerini göstərməlidir.

Bu yerdə qrant mafiyasının başında duran Ə.Kərimlidən nə üçün sorulmur ki, bu “maşennik” və satqının oğlu Türkel Kərimli ABŞ-da hansı vəsaitlər hesabına bahalı həyat tərzi keçirir? Hansı səbəbdən Ə.Kərimlinin həbsi üzərindən siyasi oyunlar qurduğu gənclər həbsdən azad olunandan sonra onlarla əlaqəni kəsir, yaxud onları düşmən və satqın elan edir? Suallar çoxdur və bu sualların ümumi məntiqi cavabı ondan ibarətdir ki, Ə.Kərimlini xalqın maraqları deyil, məhz şəxsi mənafeləri düşündürür.

“Hələ də özünü “birləşmiş müxalifətin lideri” kimi ictimai rəyə zorla sırıyan Ə.Kərimli elə sanır ki, o, həqiqətən də, düşərgədə “bir nömrədir” və s. Fəqət, gəlin görək, hər hansı müsavatçı, ADP-çi, AXP-çi, KXCP-çi, “REAL”-çı və s. onu özünə “lider” hesab edirmi? Ümumiyyətlə, pul gücünə mitinq keçirib, bunu “ümumxalq narazılığı” kimi təqdim edən Kərimli, bütövlükdə, 2500-3000 nəfəri “Azərbaycan xalqının etirazı” kimi qiymətləndirirsə, buna onun haqqı çatırmı? Əlbəttə ki, yox! Onu da, qeyd etmək yerinə düşərdi ki, Ə.Kərimlinin yanında olub, onun yolunda başından belə keçməyə hazır olan, amma sonra ondan uzaqlaşmağa məcbur qalanlar yaxşı bilirlər ki, bu ünsür ən yaxın ətrafına, yumşaq desək, həmişə arxa çevirib. Onun yolunda baş qoymağa hazır olan, bunu əməllərində dəfələrlə sübut edən insanları ən çətin günlərində ortalıqda buraxaraq, yalnız öz mənafeyini düşünüb.

### Sərdar Cəlaloğlu: “Siyasi dünyagörüşü, siyasi fəlsəfəsi olmayan AXCP ilə Müsavat “agenti” öz içində axtarsın”

Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu siyasi dünyagörüşü, siyasi fəlsəfəsi olmayan müxalifətin “agenti” öz içində axtarmağı məsləhət görüb: “Düşərgədə özlərini “lider” adlandıranlar bütün lazım olan siyasi cəhətləri kənara qoyub, yalnız “hakimiyyətə gələcəyik” xəyalları ilə fəaliyyət göstərən AXCP ilə Müsavatı ittiham edərək bildirib ki, qoy onlar “agenti” öz içlərində axtarsınlar. Xalq isə bu cür ucuz təfəkkür sahiblərinə inanmır, bundan sonra da inanmayacaq. Onların xalqa təsiri sıfır səviyyəsindədir. AXCP ilə Müsavat ağır nailiyyətsilik sindromu yaşayır. Ona görə də, hər iki partiya sədrləri və digər müxalifət təmsilçiləri günahı iqtidarda yox, bir-birlərində axtarsınlar. Çünki bir-birlərinin komandasında xəyanətkar, casus ovuna başlayaraq, dialoqa getmək istəyən müxalifət qüvvəsini dərhal xain elan edirlər. Bununla da, öz nailiyyətsizlik sindromlarını ört-basdır etməyə çalışırlar”.

S.Cəlaloğlu onu da bildirib ki, AXCP sədri Ə.Kərimlinin rəhbərlik etdiyi “Yurd”un fəaliyyət sferasına daxil olan “siyasi mühacir” biznesinin qurbanları “yatıb, indi ayılıblar”: “Bu gün qrant üstündə qırğına çıxan “siyasi mühacirlər” bir-birlərini ifşa etməsəydilər, bəlkə də hələ çox qış yuxusuna gedəcəkdilər. Bunların səbəbkarı AXCP sədri Ə.Kərimlidir”. Bu yerdə “xoruzun quyruğu görünür”. Artıq xaricdəki “söyüş qrupu” üzüdönüklük edərək, Ə.Kərimli haqqında ifşaedici faktlar açıqlamaqdan belə çəkinmirlər. Hazırda Hollandiyada yaşayan Fikrət Hüseynli bildirib ki, Ə.Kərimli və Cəmil Həsənlinin tapşırığına əsasən, xaricə “rahat həyat və yaşayış “ arxasınca getmək istəyənlərdən 2500-3000 AVRO alaraq, “Yurd” sədrinə göndərib. Eyni ilə AXCP-nin Nizami rayon təşkilatının üzvü Samir Piriyev də 15.000 AVRO ödəməklə, Ə.Kərimlidən saxta partiya vəsiqəsi aldığını söyləyib”.

Sözsüz ki, bu çirkin əməlləri həyata keçirmək üçün Ə.Kərimli əl atmadığı variant, üz tutmadığı yol qalmayıb. Bu səbəbdən də, AXCP-yə maliyyə gəliri qazandıran “sənaye müəssisəsi” kimi baxan Ə.Kərimli, Razi Nurullayev demişkən, cəbhəçiləri portağal qabığı kimi soyur: “Əli Kərimli üçün “yaxşılar” və “pislər” var: güvəndikləri “yaxşılar”dır, qalanları isə “pislər”dir.

Bir sözlə, görünən budur ki, bu gün baş verən belə hadisələrin hər birinin günahı “siyasi mühacir” adı ilə alver edən AXCP, Müsavat və s. siyasəti bazara çevirən partiya rəhbərlərindədir. Bir gün onlar da, baş verənlərə görə qanun qarşısında cavab verməli olacaqlar. Hətta Hamburq olayının üstü tam açıldıqdan sonra, bu, daha çox real görünməyə başlayacaq.

**Rəfiqə HÜSEYNOVA**

---

# Hər “çalanla” oynayanlar...

## Sevinc Osmanqızı indi də Sorosun adamı Arif Əliyevin çaldığını “çalır”

***Yenə də qaşınma, yenə də böhtanlar... Səbəb də ölkədə aparılan inqilabi sosial-iqtisadi islahatlardan, uğurlu iqtisadi inkişafdan narahatlıq keçirərək, min bir oyuna, böhtana əl atsalar da, bir nəticə əldə edə bilməyən, erməni dəyirmanına su tökən ermənisifətlilər və “Avropada özlərini “siyasi mühacir” kimi təqdim edənlər, olmayan başlarını o deşik qalmayıb soxmasınlar. Okeanın o tayında oturub, qulaqlarını şəkləyərək Azərbaycanla bağlı hər hansı uğursuz bir xəbərə sinov gedən S.Osmanqızının bu istəyi boğazına tıxanacaq. Çünki Azərbaycanda aparılan inqilabi islahatlar və həyata keçirdiyi layihələrə bütün dünya həsəd aparır.***

Bu gün ABŞ-da yaşayan və AXCP sədri Əli Kərimlinin təbliğatını aparan, qibləsi ABŞ olan S.Osmanqızı Azərbaycandakı islahatları tamamilə fərqli şəkildə dünyaya çatdırmaq istəyərək, yenidən abırsızlıq etməyə başlayıb. Bunun da haradan qaynaqlandığı bəllidir. O da bəllidir ki, sevinclər, xədicələr, gültəkinlər, leylalar və bu kimi çirkaba bulaşmış hər cür əxlaqsızlığa gedənlərin önündə, AXCP sədri Ə.Kərimli ilə “Milli Şura”nın lideri Cəmil Həsənli gedir və guya bu məmləkətin “xilası” onlardadır. Absurddur. ABŞ-a sığınmış S.Osmanqızı da “YouTube” kanalında həmin “Nağıl danışan nənə” funksiyasını yerinə yetirməyə çalışır, səsinin tembrini bəhs etdiyi mövzudan asılı olaraq dəyişir, mitinqlərdən bəhs edəndə vəcd notlarını bol edir, “hakimiyyətin əzab verdiyi xalq”dan danışanda, faciəvi çalarları seçir. Nə qədər alçaqlıq və nə qədər mənəviyyatsızlıq...

Son dönəmlərdə siyasətçilik iddiasına düşmüş bu əxlaqsızın “ozan” verballığının qəhrəmanları arasında T.Yaqublu kimi siyasətə atılıb siyasətin atdığı bir fırıldaqçının Ə.Kərimli ilə bir yer tutması da təəccüb doğurmur. Məsələn, AXCP lideri deyir ki, S.Osmanqızı da səsləndirir ki, sən demə, Azərbaycan hakimiyyətinin son qərarları, fərmanlar, sərəncamlar, vətəndaşların rifah halının yüksəlməsinə və sosial sahədə islahatlara yönəlmiş bütün (!) addımlar yanvarın 19-da “Məhsul” stadionunda keçirilmiş “möhtəşəm” mitinqdən sonra “iqtidarın qorxuya düşməsinin nəticəsi” imiş. Təkrarlanma deyil bu fikir. Bəla ondadır ki, Ə.Kərimli bu marazmı sürəkli surətdə təkrarlayır, Avropa ölkələrindəki “müstəqil bloqer”lər də S.Osmanqızı və digər siyasət luzerləri ilə səs-səsə verərək, AXCP liderini az qala Pasxa adasındakı bütə çevirirlər. Bax budur, onların alçaqlığı və əxlaqsızlığı. Çünki reallıq onlar üçün mənəviyyatlarını və əxlaqlarının qranta satmaqdır.

### S.Osmanqızı indi də Sorosun adamı Arif Əliyevin çaldığını “çalır”

İndi də S.Osmanqızı Azərbaycan mətbuatında özlərini “kapitan” kimi sırıyan, lakin medianın yefreytorları belə ola bilməyən şəxslərin çaldığını “çalmağa” başlayıb. Çalmaqla yanaşı, KİVDF, Mətbuat Şurası və s. bu kimi mediaya bağlı qurumlara qarşı qısqırdılan əsas sorosçu, “qrantyeyən” A.Əliyevin dediklərinə dəstək verməyə başlayıb. Harda aş, orda S.Osmanqızı baş. İstər S.Osmanqızı, istəsə də A.Əliyev ölkə mətbuatının daha səmərəli və keyfiyyətli standartlara keçid etməsi kimi məsələlərdə özünü “mətbuat qiyamçısı” və “haqq-ədalət carçısı” prinsipi ilə ictimai rəyə zorla dürtüşdürərkən, özlərinin keçmişlərini ya unudur, ya da mediada şou-maklerlik edərək, haqlarında formalaşmış fikirləri yayındırmağa çalışırlar. Əgər bu gün “Media Klubu” adlanan bir şər-böhtan dağarcığı fəaliyyət göstərirsə və onun başında dayanan əsas adamlardan biri də, məhz A.Əliyevdirsə, demək, hər şey tam çılpaqlığı ilə aydın olur. A.Əliyevə havayı yerə qrantyeyən adını qoymayıblar ki..!

Bunu elə həmin dövrlərdə mətbuatda olan, bu gün də mediada təmsil olunan sayt və qəzet baş redaktorları da təsdiq edə bilərlər. Təsdiq edə bilərlər ki, istər S.Osmanqızı, itərsə də A.Əliyev pul-para üçün daim mənsub olduğu media cameəsini hər an satmağa hazırdır, necə ki, indinin özündə də satır, satılır...

Elə bu satılmaqla hər şeyi satılan görürlər. S.Osmanqızı A.Əliyevin sözünü dəstək olaraq deyir ki, guya jurnalistlərə evlər satılıb. Bu qədər həyasızlıq olar? Mən və mənim kimi həmkar jurnalistlərimizin durumu gözümüzün qarşısında idi. Kirayə evlərdə qalırdılar. Ailənin göndərdiyi pulla güclə sosial problemlərini həll edirdilər. Daha doğrusu, yarıac, yarıtox. Dövlət başçımız hər dəfə jurnalistlərlə görüşəndə onların necə və hansı durumda, nə kimi problemlərinin olması ilə mütəmadi maraqlanıb. Bu gün nəticə göz qabağındadır. Ancaq görünür, A.Əliyevin çaldığı ritm elə S.Osmanqızının qanına yaman yeriyib. Həyasızcasına sosial şəbəkələrdəki verilişlərində yalandan Azərbaycan üçün ağlayır, ölkənin daxili və xarici siyasətini əsaslandırılmamış faktlarla tənqid edir. Azərbaycana nifrət edən S.Osmanqızı və A.Əliyev kimi mənəviyyatsız əxlaqsızların əsl üzü budur - “Vətən üçün pis olan bizə faydalıdır”. Təəccüblü də deyil. Çünki bu kimi əxlaqsızlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fəraridən başqa biri deyil və əxlaqsızların tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıb.

**Rəfiqə HÜSEYNOVA**

# "Siyasi mühacir" biznes dəllallarının dələduzluq əməlləri...

## *Arif Hacılının növbəti mühacir biznesi ifşa olundu*

***Necə illərdir ki, "siyasi mühacir", "mühacir biznesi" adları altında müxalifət düşərgəsində tozanaq səngimək bilmir. 25 ildən çoxdur ki, xüsusilə, AXCP və Müsavat partiyalarının dələduz rəhbərləri bu və ya digər şəkildə onlara müraciət edən şəxslərə saxta arayışlar təqdim edərək, guya Azərbaycanda siyasi fəaliyyətlərinə görə təqib olunduqları haqda yalandan imza atır, bunun müqabilində "siyasi mühacir" bizneslərini, necə deyərlər, inkişaf etdirirlər.***



Bununla da, Avropada baş verən hadisələrin törədiciləri, ya Əli Kərimlinin, ya da Arif Hacılının "yastığı altından" çıxanlar olur. Dəfələrlə sübuta yetirilib ki, Avropaya bu kimi saxta adlar altında köçənlərin əksəriyyəti müxtəlif cinayət əməlləri törədən şəxslərdirlər ki, onlar köçdükləri ölkələrdə də bu fəaliyyətlərini davam etdirərək, bənzər cinayətlərini təkrarlayırlar.

İstər Ə.Kərimli, istər A.Hacılı və yaxud da İ.Qəmbər kimi satqın və əxlaqsızların törəmələri də özləri kimi, cinayətkar olaraq qalmaqdadırlar. Məhz buna görə də, bu gün Azərbaycanda müxtəlif cinayətlər törədən şəxslərin dərhal "siyasi məhbus" siyahılarına salınmaları kimi hallar daha ağır fəsadlara yol açır. Belə şəxslər azadlığa çıxdıqdan dərhal sonra bu ad altında xarici ölkələrə köçür, sonradan cinayətkar əməllərin, hətta göründüyü kimi, qətl hadisələrinin, bilavasitə iştirakçılarına çevrilirlər. Görünən isə, budur ki, adlarının baş verən hər hansı hadisələrin hər birinin günahı "siyasi mühacir" adı ilə alver edən AXCP, Müsavat və s. siyasəti bazara çevirən partiya rəhbərlərindədir.

### Son 6 ayda 483 vətəndaşa - Müsavat üzvünə saxta arayış verilib

Müsavatın "siyasi mühacir" alverinin miqyasını ifşa edən "Yeni Müsavat" qəzetinin yazarı olmuş Elbəyi Həsənli öz "Facebook" statusunda qeyd edib ki, A.Hacılının rəhbərliyindəki komanda son 6 ayda 483 vətəndaşa Müsavat üzvü olmaqla bağlı saxta arayış verib: "Bəllidir ki, Azərbaycanda nə dövlət, nə də özəl idarələrə belə arayış gərək deyil. Bu arayışların yalnız mühacirət üçün gərəkli olduğu hər kəsə bəllidir. Çox istərdim ki, Müsavat partiyası "6 ayda 483 arayış"la bağlı rəsmi açıqlama versin".

E.Həsənli, onu da yazır ki, A.Hacılı hansı üzlə özünü təmizə çıxarır: "A.Hacılı saxta arayışın qiymətini "fil belinə qaldırıb", adamda abır-həya olar. Bir də mənə Müsavat partiyasına görə oturum versəydilər belə, burada qeyri-adi bir şey olmazdı. Ən azı, mən partiya sıralarına daxil olduqdan 9 il sonra Avropaya üz tutmuşam. İndikilər bəzən 9 saat ərzində partiya vəsiqəsi, arayış və İ.Qəmbərlə, A.Hacılı ilə foto əldə edib, Avropaya yollanırlar. Təbii ki, müvafiq ödənişdən sonra".

### Yadigar Sadıqlı: "Dəfələrlə təklif etmişik ki, İsa Qəmbər və Arif Hacılı, bu arayışların verilməsini dayandırın, ancaq üzərinə gedəndə, bizə şər atırlar"

Müsavatın sabiq başqan müavini Yadigar Sadıqlının dediyinə görə, partiyada nə İsa Qəmbər, nə də Arif Hacılı dövründə heç bir şəffaflıq olmamışdı: "Hər ikisinin böyük günahları var. Çünki şəffaflığa yol vermirlər. Elan olunub ki, A.Hacılının başqan olduğu dövrdə, 197 nəfərə arayış verilib. Hətta biz divan üzvlərinə bu 197 nəfərin kim olması barədə məlumat verilməyib. Elə ona görə də, bununla bağlı partiyamızı müdafiə edə bilmirik".

Y.Sadıqlı onu da qeyd edib ki, dəfələrlə arayışların verilməsinin dayandırılması tələbi ilə partiya rəhbərliyi qarşısında məsələ qaldırılıb: "Dəfələrlə təkif etmişik ki, bu arayışların verilməsini dayandıraq. Partiyanı bu məsələlərdən uzaq tutaq. Hətta Müsavat partiyasının müəyyən müddətə arayış verilməsinə moratorium elan etməsini təklif etmişik. Buna əks-arqumet irəli sürürlər ki, partiya üzvünün arayış alma hüququ var. Bildirdik ki, heç bir üzvün hüququ partiyanın imicindən artıq deyil. Buna baxmayaraq, təklifimiz qəbul olunmayıb. Biz isə, çox da üzərinə gedəndə, başlayırlar bizlərə şər atmağa ki, hökumət də, siz də bu siyahını öyrənmək istəyirsiniz. Məqsədiniz nədir? Yəni bizi hökumətlə iş birliyində ittiham edirlər".

Y.Sadıqlı Müsavatdan arayış alıb mühacirətə gedənlərin yaratdığı "AKM"-in fəaliyyətini doğru hesab etmir: "Nəticələr göstərir ki, bu təşkilatın yaranması uğursuz işdir. Baxırsan ki, Avropada 200 nəfərlə tədbir keçirirlər. İnsanlarda sual yaranır ki, burada tədbir keçirəndə, 200 nəfər adam toplaya bilmirsiniz, Avropada 200 nəfər müsavatçı nə edir? Şəkillərə baxırlar və deyirlər ki, bunlara nə təzyiq olub ki, çıxıb gediblər? Bununla bağlı paylaşanda, sual edirlər ki, "bəy, bu insanlara hansı təzyiq olub ki, onlar ölkədən çıxıb gediblər?" Açığı, mənim onlara veriləcək cavabım yoxdur. Hesab edirəm ki, Müsavat burada heç nə qazanmır. Əksinə, bu problem partiyaya ziyan vurur. Bunun qarşısını mütləq almaq lazımdır ".

### Əli Orucov: "Başqalarını saxtakarlıqda ittiham edənlərin saxtakarlıqlarını görəndə, heyrətə gəlirsən"

AMİP siyasi şurasının üzvü Əli Orucov isə, bildirib ki, bu cür saxtakarlıq halları cəmiyyətdə hər zaman qınağa tuş gəlib: "Başqalarını saxtakarlıqda ittiham edənlərin etdikləri saxtakarlıqların miqyasını görüncə və eşidincə, heyrətə gəlirsən. Belə hallar həm əsl siyasi mübarizə aparan insanlara hörmətsizlik, həm də dövlətə qarşı təxribat və gözdənsalmadır. Məncə, hüquq-mühafizə orqanları bu məsələnin izinə düşməlidir. Onlar bütün saxtakarlıq və "mühacir" "ixracının" izinə düşüb, bunu ifşa etməli və eyni zamanda, hüquqi ölçü götürməlidirlər. Sabah, doğrudan da, hansısa müxalifət fəali incidilsə, buna inanılmayacaq. Məncə, məsələ çox ciddi olduğundan, ciddi də tədbirlər görülməlidir".

Göründüyü kimi, istər Müsavat, istərsə də AXCP kimi dələduzların pul qazanmaq üçün hər hansı bir çirkin oyunlara əl atmaqla, Azərbaycanın beynəlxalq imicinə ləkə gətirməyə cəhd etməyə çalışsalar da, bu dələduzların dəllallığı ancaq öz başlarına bir əngəl olmaqdan başqa, bir şey deyil. Bu cür müxalifətçiliyin sonu elə belə də olmalıdır.

***Rəfiqə HÜSEYNOVA***

# Müsavatda sular durulmur

## *Partiyanın növbəti qurultayı ərəfəsində vəziyyət gərginləşib*

***Müsavat partiyasının daxilində yaranmış gərginlik davam edir. Bu gərginliyin əsas səbəbi, daha öncələr də olduğu kimi, qurultay məsələsidir. Daha doğrusu, hələ 2014-cü ildə baş tutmuş qurultayın səsi-sədası hazırda da davam edir. Bu reallıq isə, belə deməyə əsas verir ki, sabiq başqan İsa Qəmbərin saxtakarlıq yolu ilə öz yerinə Arif Hacılını təyin etməsi və bunun ardınca yaranan narazılıqlar səngiməyib, əksinə artıb. Təbii ki, istefaları, ya da istefa verənlərin əksəriyyətinin ayrı-ayrı təşkilat və hərəkatlarda birləşmələrini də, buraya əlavə etsək, Müsavatın qarşıdan gələn qurultayı, söz yox ki, daha qalmaqallı keçəcək.***

### Yadigar Sadıqlının Müsavat rəhbərliyinə qarşı çıxışları ilk dəfə deyil

Xüsusilə, partiyanın divan üzvü Yadigar Sadıqlının başqanlığa namizəd olacağı ilə bağlı irəli sürdüyü iddiası da bu cür düşünməyə vadar edir. Artıq bu məsələ Müsavat partiyasının bağlı qrupunda ən çox danışılan mövzuya çevrilib. Hətta A.Hacılının müavini Səxavət Soltanlı səviyyəsində tiraltı ifadələri ilə Y.Sadıqlını və tərəfdarlarını təhqir edərək onları "murdar", "savadsız" və s. adlandırıb. Bu barədə saytımızda daha geniş və müfəssəl məlumatlar verilib və həmin yazını təqdim olunan linkdən oxuya bilərsiniz. http://sia.az/az/news/politics/753559.html

Lakin bu arada, onu da xatırlatmaq olar ki, əslində, Y.Sadıqlının Müsavat rəhbərliyinə qarşı çıxışları ilk dəfə deyil. Məsələn, bir müddət öncə, bu ilin aprelində Müsavat divanının üzvü partiya başqanına qarşı sərt ittihamlarla çıxış edib və həmin çıxışını "Facebook" sosial şəbəkəsindəki səhifəsində ictimailəşdirib.



### Yadigar Sadıqlı bir müddət əvvəl yazmışdı: "Arif Hacılının xeyir-duası ilə məni satqın, öyrədilmiş və Müsavatı parçalayan elan etmək uğrunda yarış gedir"

Y.Sadıqlı, A.Hacılını partiya daxilində yaranmış avtoritar idarəçiliyi, səriştəsizliyi etiraf etməyə çağırsa da, Hacılı qruplaşması ona qarşı hücuma keçərək, onu təhqir edib və aşağılayıb. Y.Sadıqlı onu da yazmışdı ki, A.Hacılı söz verdiyi kimi, mübarizəni müxalifət daxilindən çıxarıb, amma hakimiyyətə qarşı deyil, partiya daxilinə yönəldib. Sadıqlının haqlı iradlarına qarşı çıxış edən Hacılı qruplaşması isə, əvəzində, onu satqın və xəyanətkar adlandırıb. SİTAT: "Müsavat partiyası üzvlərinin sosial şəbəkədəki qapalı qrupunda başqan Arif Hacılının xeyir-duası ilə məni satqın, öyrədilmiş və Müsavatı parçalayan elan etmək uğrunda yarış gedir. Kimlərin etdiyini soruşmayın, əksəriyyətini heç tanımazsınız, profillərində hakimiyyət əleyhinə söz tapmazsınız".

Bu arada, Y.Sadıqlının və tərəfdarlarının Müsavatın divan toplantısında sonuncu xəbərdarlıq almaları suyu daha da bulandırıb. Onlar partiyadaxili mübarizələrini daha da artıracaqlarını, A.Hacılının Müsavat partiyasını şəxsi əmlakı kimi istifadə etməsinə imkan verməyəcəklərini bəyan ediblər. Onu da, qeyd edək ki, Y.Sadıqlı, hələ bir müddət əvvəl, müsavatdaxili rejimə etiraz edərək, partiya başqanının müavini vəzifəsindən də istefa vermişdi. İndi isə, onun tərəfdarları ilə birgə daha barışmaz və ardıcıl hücumlar edəcəyini istisna etmək olmaz. Hər halda, baş verənlər göz qarşısındadır.

***Rövşən RƏSULOV***

# İnsan hüquqlarının müdafiəsində demokratik qərarlar

***Son illər ərzində, Azərbaycan bir cox beynəlxalq Konvensiyalara, BMT-nin işgəncələrə və digər qəddar, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya və onun Fakultativ Protokolu, işgəncə və qeyri-insani, ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Avropa Konvensiyası, İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmuş, işgəncələrin qarşısını almaq üçün müxtəlif tədbirlər həyata kecirmişdir. Bu Konvensiyaların həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti tərəfindən bir sıra sərəncam və fərmanlar imzalanmışdır.***




İşgəncələrin qadağan olunması Azərbaycan Milli qanunvericiliyində də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsində göstərilir ki, dövlətin ali məqsədi insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsidir. 25-ci maddədə isə, dövlətin hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verməsi öz əksini tapıb. Bununla yanaşı, 31-ci maddə ilə hər kəsin təhlükəsiz yaşamaq hüququna təminat verilir.

Maddə 46-da göstərilir ki, şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur və heç kəs ləyaqətini alçaldan rəftar və cəzaya məruz qala bilməz. Özünün razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz. Hər kəsin fikir və söz azadlığı vardır (maddə 47). Hər kəsin dinə münasibətini müstəqil surətdə müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ var (maddə 48). Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır (maddə 50). AR Konstitusuyasının 71-ci maddəsinin 3-cü hissəsində hüquq və azadlıqların məhdudlaşdırılması əsasları da nəzərdə tutulmuşdur. "Yalnız müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə, səfərbərlik elan edilərkən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərtilə, qismən və müvəqqəti məhdudlaşdırıla bilər."

AR Cinayət Məcəlləsinin (CM) "İşgəncə" adlanan 113-cü maddəsində tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə fiziki ağrılar və ya psixi iztirablar vermə işgəncə hesab edilir və yeddi ildən on ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. CM-in "İşgəncə vermə" adlanan 133-cü maddəsinə görə, "mütəmadi olaraq, döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə" işgəncə hesab olunur və üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.CM-in 331.3-cü maddəsində (hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə) hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan şəxsi döyməsi və ya ona işgəncə verməsinə görə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

Cinayət Prosessual Məcəllənin (CPM) 13-cü maddəsində (şəxsin şərəf və ləyaqətinə hörmət edilməsi) göstərilir ki, cinayət təqibi (cinayət hadisəsinin müəyyən edilməsi, cinayət törətmiş şəxsin ifşa olunması və ona qarşı ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi məqsədi ilə həyata keçirilən cinayət-prosessual fəaliyyətdir) gedişində insani şərəf və ləyaqətini alçaldan, təhqir edən, habelə, cinayət prosesində iştirak edən şəxslərin həyatı və səhhəti üçün təhlükə törədə biləcək qərarların qəbul edilməsi və ya hərəkətlərə yol verilməsi qadağandır. CPM-in 15-ci maddəsi ilə aşağıdakılar qadağan edilir:

-işgəncələr vermək, fziki və psixi zorakılıqdan, o cümlədən, tibbi preparatlardan istifadə etmək, aclığa, hipnoza məruz qoymaq, tibbi yardımdan məhrum etmək, digər qəddar, qeyri-insani və ya ləyaqti alçaldan rəftar və cəzalar tətbiq etmək;

-uzun sürən və ya kəskin fiziki iztirabla, yaxud səhhətin müvəqqəti pozulması ilə müşayiət olunan eksperimentlərdə və ya digər prosesual hərəkətlərdə iştiraka cəlb etmək, habelə, buna bənzər hər hansı digər sınaqlar keçirmək;

-zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsdən, habelə, cinayət prosesində iştirak edən digər şəxslərdən zorakılıq, hədə-qorxu, aldatma yolu ilə və onların hüquqlarını pozan sair hərəkətlər tətbiq etməklə ifadə almaq.

19-cu maddədə göstərilir ki, cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə zərərçəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnu təmin etmək üçün tədbirlər görməlidir.

Polis haqqında Qanunun 5-ci maddəsində (insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində polisin fəaliyyəti) polisin hər hansı bir şəxslə insan ləyaqətini alçaldan şəkildə rəftar etməsinin yolverilməzliyi əks olunub.

Hər hansı vəziyyətdən asılı olmayaraq, insanlar əsas insan hüquqlarına malikdirlər. Qanuni əsas olmadan insanlar bu hüquqlardan məhrum edilə bilməzlər. Qanuni əsasla müəyyən müddətə tutulmuş və ya həbs olunmuş şəxs azadlıq hüququndan məhrum olunur. Azadlıqdan məhrumetmə yerlərində adamlar hökmə əsasən, cəza çəkirlər. Onlar həbsxanaya cəza olaraq salınırlar, orada cəzalandırılmaq üçün deyil. Buna görə də həbsxanalarda həyat şəraiti əlavə cəza xarakteri daşımamalıdır. Cəzaların İcrası Məcəlləsində də (CİM) işgəncə yolverilməz hesab olunur. Burada göstərilir ki, cəzaları icra edən müəssisə və ya orqanın işçi heyəti məhkumlara qarşı münasibətdə nəzakətli olmalıdır. CİM-in 3-cü maddəsində deyilir ki, cəzaların icrası prosesində məhkumlarla rəftarda işgəncələrə, digər pis hərəkətlərə və şəxsiyyətin alçaldılmasına yol verilməməlidir. 10-cu maddədə isə, göstərililr ki, məhkumlar qəddar və ya insan ləyaqətini alçaldan rəftara və onların həyat və sağlamlıqlarını təhlükə altında qoya bilən tibbi və ya başqa təcrübələrə məruz qalmamalıdırlar.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Zeytunda olan yağ turşuları ana südünün tərkibinə çox yaxındır

Zeytunun meyvəsi ölümsüzlük və bərəkət, yarpaqları yeni həyat, budağı isə sülh rəmzi sayılır. Qədim yunanlar zeytun yağını "maye qızıl" adlandırırdılar. Belə ki, bu bitkinin tərkibində praktik olaraq insan orqanizminə lazım olan bütün mikroelement və vitaminlər var. Onun meyvəsinin 80 faizi doymamış yağ turşularından ibarətdir. Həmin yağlar isə heyvani yağdan fərqli olaraq aterosklerozun inkişafını dayandırır, ürək-damar sisteminə və həzm orqanlarının fəaliyyətinə müsbət təsir göstərir. Tərkibindəki F vitamininin əsas komponenti hüceyrə membranının qurulmasında iştirak edir. İmmunostimulyator, həzmyaxşılaşdırıcı, xora əleyhinə, qan laxtalandırıcı, antioksidant və zəif işlədici təsirlərə malik zeytun yarpaqlarının tərkibindəki oleuropein qan təzyiqini də stabilləşdirməyə kömək edir.



Fransız diyetoloqlarının fikrincə, zeytun yağı orqanizmi demək olar ki, bütün xəstəliklərdən qoruyur, qocalmanı dayandırır, bədəni cavanlaşdırır və ömrü uzadır. Kardioloqlar zeytun yağının miokard infarktı riskini 70 faiz azaltdığını söyləyirlər. Zeytunun tərkibindəki doymamış yağ turşuları qadın cinsiyyət vəzilərinin funksiyasını normalaşdırır. Alimlər bitkinin tərkibindəki yağ turşularının ana südünə çox yaxın olduğunu müəyyən ediblər. Zeytun ağacının qabıqlarından kinə əvəzedicisi kimi istifadə olunmasına çalışırlar.

# Qreypfrut kökəlmə yaratmır, immuniteti gücləndirir

İlk dəfə qreypfrut XVIII əsrin axırlarında Barbados və Yamayka-da aşkar olunsa da, tədqiqatçıların böyük əksəriyyəti onun şeddok və ya pompelmus adlı Asiya limonu ilə şirin portağalın təsadüfən hibridləşməsi nəticəsində yarandığını hesab edir. Bəzi mənbələrdə isə meyvənin vətəninin Çənubi Amerika və Hindistan olduğu göstərilir. Ölkəmizin iqlim şəraiti qreypfrut yetişdirmək üçün münasib deyil. Onu Türkiyənin cənub, cənub-qərb, şimal-şərq bölgələrində, xüsusən Anadoluda yetişdirirlər.



AZƏRTAC xəbər verir ki, qreypfrut hündürlüyü 6-7 metrə çatan ağacdırr. İngiliscədən adının üzüm meyvəsi kimi tərcümə olunması heç də təsadüfi deyil, çünki onun meyvələri ağacda iri salxımlar şəklində yetişir.

Bir ədəd qreypfrutun enerji dəyəri təxminən 50 kaloriyə bərabərdir, az kalorili olduğuna görə pəhriz qidası kimi hər gün yeyilməsi məsləhət görülür. Tərkibində bol miqdarda C vitamini olduqna görə orqanizmdə "qış xəstəliklərinə", xüsusən də qrip və soyuqdəyməyə qarşı immuniteti gücləndirir. Yeməkdən əvvəl qəbul ediləndə iştahaaçıcı təsir göstərir, lakin orqanizmdə lipid və karbohidrat mübadilələrini sürətləndirdiyinə görə kökəlməyə səbəb olmur, əksinə yağların parçalanmasını sürətləndirir.

İnfeksion xəstəliklər zamanı xəstəyə verilməsi sağalmanı sürətləndirir. Qreypfrut həmçinin, həzmi və bağırsaqların fəaliyyətini tənzimləyir, qəbizliyi aradan qaldırır, fiziki və zehni yorğunluğu aradan qaldırır və orqanizmi gümrahlaşdırır. Meyvənin tərkibində olan bəzi maddələr şəkərli diabet xəstələri üçün əvəzolunmaz müalicə vasitəsidir.

Meyvədə olan qırmızı rəngli likopen adlı piqment təbiətdə rast gəlinən ən güclü antioksidantlardan biridir, orqanizmdə yaranan atipik hüceyrələri məhv edir və xərçəngin inkişafının qarşısını alır.

Meyvənin acıtəhər dadı var, ona acılıq verən maddələrin əsas hissəsi qabığına yaxın və arakəsmələrdə yerləşir. Ona görə də qreypfrutun qabıqlarını soyanda və ya şirəsini sıxıb içəndə acılıq demək olar ki, hiss edilmir. Qabığından alınan yağ C vitamini ilə zəngindir, qrip və soyuqdəymə zamanı qəbul olunur.



# Güləşçilərimiz Gürcüstanda Qran-Pri turnirində iştirak edəcəklər

Avqustun 7-dən 10-dək Tbilisidə Vaxtanq Balavadzenin və Givi Kartoziyanın xatirəsinə həsr olunan sərbəst və yunan-Roma güləşi üzrə Qran-Pri turniri keçiriləcək. Azərbaycan Güləş Federasiyasının saytında yer alan məlumata görə, yarışda ölkəmizi hər iki yığmamızın üzvləri təmsil edəcəklər. Sərbəst güləşçilərin yarışında məşqçilər Arif Abdullayev və Sadruddin Ayqubovun rəhbərliyi ilə Georgi Edişerașvili, Şahin Muxtarov (hər ikisi 57 kq), Mircəlal Həsənzadə, Pərviz İbrahimov, Ruslan Qasımov, Əhmədnəbi Qvarzatilov (hamısı 61 kq), Gitinoməhəmməd Hacıyev, Davud İbrahimov (hər ikisi 70 kq), Toğrul Əsgərov, İsmayıl Abdullayev (hər ikisi 74 kq), İbrahim Yusubov (79 kq), Hacımurad Məhəmmədsəidov (86 kq) və Şamil Zubairov (92 kq) mübarizə aparacaqlar.




Yunan-Roma güləşçilərimiz isə böyük məşqçi Rövşən Bayramovun və məşqçi Turac Hüseynlinin rəhbərliyi ilə uğur qazanmağa çalışacaqlar. Heyətdə Taleh Məmmədov (60 kq), Murad Məmmədov, Elman Muxtarov (hər ikisi 63 kq), Kamran Məmmədov (67 kq), İslambek Dadov (72 kq), Həsən Əliyev (77 kq), Elvin Mürsəliyev, Rafiq Hüseynov (hər ikisi 82 kq), Orxan Nuriyev (97 kq) və Beka Kandelaki (130 kq) yer alıblar. Qran-Pridə beynəlxalq dərəcəli hakim Həbib Nurulu qarşılaşmaların idarə olunmasında iştirak edəcək.

# Ronaldo İkardinin transferinə "hə" dedi



"İnter"in futbolçusu Mauro İkardi "Yuventus"a keçməyə yaxındır. "La Gazzetta dello Sport" nəşrinin yazdığına görə, Turin klubunun hücumçusu Kriştiano Ronaldo argentinalı oyunçunun komandaya transfer olunmaq variantını bəyənib. O hesab edir ki, İkardi ilə mükəmməl ikili olacaqlar. 34 yaşlı oyunçu İkardinin ona qol vurmaq üçün epizodlar yaradacağına inanır. Ancaq bu keçiddən əvvəl "Yuventus" hücumçusu Paulo Dibalanı satmalıdır. "Mançester Yunayted"ə transfer olunmaq istəməyən argentinalı hücumçu ilə PSJ-nin maraqlandığı iddia olunur.

# "Beşiktaş"ın qapıçısı bir ay futboldan uzaq qalacaq



"Beşiktaş"ın qapıçısı Loris Karius son durumu müəyyənləşib. İstanbul klubunun rəsmi saytında yer alan xəbərə görə, "Breşia" ilə yoxlama matçında zədələnən alman qolkiperin sol üst baldırında problem aşkarlanıb. Onun müalicəsinə başlandıldığı vurğulanıb. Türkiyə mətbuatı Kariusun 1 ay yaşıl meydanlardan uzaq qalacağını yazıb. Qeyd edək ki, "Beşiktaş" Kariusu ötən yay "Liverpul"dan iki illik icarəyə götürüb.

# "Barselona" Neymar üçün 250 milyon avro təklif edib?



İspaniyanın "Barselona" klubu Fransa PSJ-sində çıxış edən səbiq futbolçusu Neymarı geri qaytarmaq üçün yeni təklif irəli sürüb. Bu barədə jurnalist Abdella Boulma"Twitter" hesabında yazıb. Onun sözlərinə görə, Kataloniya təmsilçisi 27 yaşlı hücumçudan ötrü 250 milyon avro ödəməyə hazırdır. "Barselona" bu məbləği 2 il ərzində 3 mərhələdə (150+50+50) ödəməyi düşünür. Qeyd edək ki, Neymar iki il əvvəl "Barselona"dan PSJ-yə rekord məbləğə - 222 milyon avroya keçib. Onun Paris klubu ilə müqaviləsi 2022-ci ilədək qüvvədədir.


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600